www.musavat.com

# YENİ MÜSAVAT

Qurucusu: Rauf Arifoğlu Gündəlik qəzet 4 noyabr 2014-cü il Çərşənbə axşamı № 271 (5980) Qiyməti 40 qəpik

**Xəbər**

## Goranboy qatilinin qardaşı özünü asdı, atasının ürəyi partladı

yazısı səh.2-də

**Gündəm**

### Bu gün Aşuradır



Ölkə məscidlərində qanvermə aksiyası keçiriləcək; tanınmışlardan kimlər bu tədbirlərə qoşulacaq?

yazısı səh.10-da

### Vurğun Əyyubun yeni vəzifəsinə Müsavatdan reaksiyalar...

yazısı səh.5-də

### Yalnız partiya sədrlərinin qatıldığı piket keçiriləcək - Azərbaycanda ilk!

yazısı səh.6-da

### Müxalifətdən İŞİD-ə qoşulanlar varmı?

yazısı səh.3-də

### İşdən çıxarılan polkovnik intihar etdi

yazısı səh.2-də

### Orxan Kərimov yenə məhkəməyə müraciət edəcək

Keçmiş təhsil məmurunun əlində şok sənədlər var

yazısı səh.3-də

### Minsk Qrupundan "Minsk protokolu"nadək

yazısı səh.11-də

### Kəlbəcərli girovlara görə beynəlxalq təşkilatlar ittiham edildi

yazısı səh.10-da

### Apardı sellər Bakını...

Bir neçə saat davam edən yağış paytaxtı iflic etdi; tıxaclar yarandı, yollar keçilməz oldu, evləri su basdı

yazısı səh.12-də

### Arvadı ilə Suriyaya qaçmaq istəyən şəxs həbs olundu

yazısı səh.14-də

### Bakının su altında qalacağı xəbəri doğrudurmu?

yazısı səh.15-də

### İŞİD 11 nəfərin başını kəsdi

yazısı səh.12-də

### Gəncədə dindarlarla polis arasında qarşıdurma

yazısı səh.14-də

## Ölkəmizdən "CİHAD" yolçuluğunun yeni marşrutu

# AZƏRBAYCAN İŞİD-ÇİLƏRİ HAQDA ŞOK MƏLUMATLAR - EKSKLÜZİV

İŞİD üçün Türkiyə yolu qapandı, Pakistan yolu açıldı; Azərbaycan hakimiyyəti "cihad"a gedənləri saxlamamaq barədə qərar qəbul edib; "şəhid" olmağa gedənlər avtomatlarını da öz pullarına alırlar; dünyanın 1 saylı mövzusu barədə şok bilgilər...

yazısı səh.13-də




# "Hafka"nı dirildən "sehirli çubuq" Məmmədovları bitirir

Hafiz Məmmədovun əlindən alınan hər şeyi geri qaytarırlar, bir Ziya Məmmədovla şəriklikdən başqa... Məmmədovların nəhəng biznes ortağı, üstəlik hakimiyyətdə sanballı olan, illərdir onunla rəqib kimi davranan bir regionun təmsilçisi ilə bağlarını necə qırdılar?

yazısı səh.9-da



### Qubad İbadoğlu tərəfdarlarını yenidən Müsavat qərargahına toplayır

yazısı səh.6-da



Ərəstun Oruclu

### Tanınmış politoloqdan müxalifətlə bağlı ilginc açıqlamalar

yazısı səh.4-də



*Rauf Arifoğlu:*

### "Əli Kərimli və dəstəsinə müalicəsi olmayan xəstəlik kimi yanaşıram"

yazısı səh.3-də

**4 noyabr 2014**



## Prezident Macarıstana gedəcək

**Azərbaycan prezidenti İlham Əliyev gələn həftə Macarıstana səfər edəcək. APA-nın məlumatına görə, bunu Bakıda səfərdə olan Macarıstanın xarici işləri Peter Siyarto deyib. O bildirib ki, Macarıstan tərəfi səfərin yüksək səviyyədə həyata keçirilməsi üçün tədbirlər görür.**

Macarıstanlı nazir qeyd edib ki, Azərbaycan prezidentinin Macarıstana səfəri zamanı mülki aviasiya ilə bağlı müvafiq sazişlərin imzalanması gözlənilir.

Bundan əlavə, səfərə qədər strateji tərəfdaşlıq sazişi üzərində işi bitirmək nəzərdə tutulub: "Bu il ticarət dövriyyəmiz keçən ilə nisbətən 18 faiz artıb. Azərbaycanla əlaqələrimiz inkişaf edir. Ölkəmiz 200 Azərbaycan gəncinə təhsil təqaüdü ayırmağa hazırdır. Əminəm ki, prezident İlham Əliyevin Macarıstana səfərindən sonra əlaqələr daha da inkişaf edəcək".

## Ramil Usubov yeni müavinini şəxsi heyətə təqdim etdi

**Azərbaycan daxili işlər nazirinin yeni müavini, polis general-mayoru İsmət Əliyev şəxsi heyətə təqdim olunub. APA-nın məlumatına görə, İ. Əliyevi şəxsi heyətə daxili işlər naziri, general-polkovnik Ramil Usubov təqdim edib. Nazir İ. Əliyevə yeni işində uğurlar arzulayıb.**

Qeyd edək ki, daxili işlər nazirinin müavini, polis general-leytenantı Əsgər Ələkbərov bir neçə gün əvvəl ölkə başçısı İlham Əliyevin imzaladığı sərəncamla xidmətdə olmanın son yaş həddinə çatdığına görə təqaüdə göndərilib.

Onun yerinə Daxili İşlər Nazirliyinin Baş Kadrlar İdarəsinin rəisi İsmət Əliyev təyin olunub.

## Həsən Əliyevin məhkəməsində zərərçəkənə təzyiq olunur?

**Dünən Gəncə Ağır Cinayətlər Məhkəməsində keçmiş hakim Həsən Əliyevin işi üzrə növbəti məhkəmə prosesi keçirilib. Zərərçəkən iş adamı Ramazan Səlimovun vəkili İradə Cavadova "Qafqazinfo"ya açıqlamasında bildirib ki, hüquqlarını qoruduğu şəxs təqsirləndirilən tərəf Həsən Əliyevin vəkili Sadiq Rəsulovun suallarını cavablandırıb.**

Vəkil onun 1 milyon pulu necə əldə etməsi ilə bağlı sual ünvanlayıb. Səlimov isə həmin vəsaiti satdığı torpaq sahəsindən əldə etdiyini deyib.

İradə Cavadovanın sözlərinə görə, təqsirləndirilən tərəf məhkəməyə sübut olaraq 2005-ci ildə R.Səlimovun torpaq sahəsi satması və oradan gələn gəlirin 40 min manat olmasına dair sənəd təqdim edib.

İradə Cavadova isə bildirib ki, müdafiə etdiyi şəxs 2005-ci ildən sonra da bir neçə bağ evi satıb.

Vəkilin sözlərinə görə, R.Səlimov zərərçəkən şəxs kimi tanınsa da proses boyu ona mahiyyətdən uzaq suallar ünvanlanıb.

Belə ki, Səlimov həyat yoldaşının iş yeri, maaşı, 1998-ci ildə yaşadığı hansısa qarşıdurma, 1 milyonu haradan əldə etməsi ilə bağlı suallara cavab verməli olub. İ.Cavadova müdafiə etdiyi şəxsin 4 saat ayaqüstə suallara cavab vermək məcburiyyətində qaldığını qeyd edib.

O, bütün bu halları təzyiq vasitəsi hesab etdiyini bildirib.

Növbəti proses noyabrın 17 və 18-nə təyin edilib.

Qeyd edək ki, keçmiş hakim Həsən Əliyev iş adamını aldadaraq aldığı 600 min manat pulu mənimsəməkdə təqsirli bilinir.

"Elm" tədris mərkəzi
MAGIC LANGUAGES
➔ Ali məktəblər xarici dillər
➔ kompyuter kursları
➔ Magistratura - dövlət qulluğu - məntiq
➔ 1.C. mühasibat - anbar - bank işi
➔ Məktəbə qədər həftədə 5 dəfə
➔ Sürücülük kursları (1 aya 100 AZN)
Ünvan: 1. «Neftçilər» metrosu 40 mert. R.Rüstəmov-44
Tel:/Faks: (012) 421-10-46; 408-44-43;
Mob: (055) 660-60-95; (050)203-55-95
Ünvan: 2. «İnşaatçılar» metrosu 60 metr. «İran» klinikasının yanı
Tel:/Faks: (012) 434-88-28; 408-44-74;
Mob: (055) 660-07-05

# Müsavat Divanı qərarlar verdi

**Dünən Müsavat Partiyası Divanının növbəti iclası keçirilib. Divanda qərarların icrası və görülən işlər barədə məlumat verilib.**

Partiyanın rayon təşkilatlarının iştirakı ilə zona müşavirəsinin keçirilməsi barədə Müsavat Partiyası başqanının müavinləri Elman Fəttah və Səxavət Soltanlının məlumatları dinlənilib. Cəlilabad şəhərində keçirilən zona müşavirəsində Cəlilabad, Salyan, Biləsuvar və Masallı rayon təşkilatlarının fəalları iştirak edib. Tədbirdə partiya üzvlərinin bələdiyyə seçkilərində iştirakları, partiyanın VIII Qurultayından sonrakı ictimai diskussiyalar, Müsavat Partiyası Məclisinin bu barədə bəyanatı və digər məsələlər müzakirə olunub.

Divanda həmçinin noyabr ayında keçiriləcək zona müşavirələrinin qrafiki təsdiqlənib.

Noyabrın 22-də Bakı şəhərində ümumrespublika müşavirəsinin keçirilməsi barədə qərar qəbul edilib.

Milli Şuranın noyabr ayının 10-na təyin etdiyi "Siyasi məhbuslara azadlıq!" tələbi ilə keçiriləcək mitinqdə iştirak barədə partiya üzvlərinə sərbəstlik verilməsi qərara alınıb.

Yığıncaqda müxalif fikirli insanlara qarşı təzyiqlərin yeni dalgasının başlanması, AXCP fəalı Xalid Qarayevin şərlənərək inzibatı xəta törətməkdə təqsirləndirilərək həbs edilməsi, Ziyalılar İttifaqının sədri Eldəniz Quliyevin sosial şəbəkələrdə paylaşdığı fikirlərə görə məhkəmə qərarı ilə ictimai işlərlə məşğul olmaq və cərimə cəzasına məhkum edilməsi, iqtisadi qanunpozma bəhanələri ilə həbs edilən QHT-çilərin istintaq müddətlərinin və onlar haqqında həbs-qətimkan tədbirlərinin uzadılması pislənilib.

Divanda Mingəçevir şəhərində İstiqlal abidəsinin sökülməsi hadisəsi pislənilib və bu məsələnin aydınlaşdırılması hakimiyyət orqanlarından tələb edilib.

Divan eyni zamanda Ukraynanın Donbas bölgəsinin Donetsk və Luqansk vilayətlərində separatçıların Ukrayna Konstitusiyasına və beynəlxalq normalara zidd olaraq keçirdikləri seçkilərin nəticələrinin heç bir hüquqi qüvvəsinin olmamasını bəyan etməklə yanaşı, bu seçkilərin nəticələrinin tanınmaması üçün beynəlxalq qurumların səylərinin artırılmasını məqsədəuyğun hesab edib.

**Sonda cari məsələlərə baxılıb.**



## İşdən çıxarılan polkovnik intihar etdi

**Xətai rayonunda intihar hadisəsi baş verib. Xətai Rayon Polis İdarəsindən APA -ya verilən məlumata görə, hadisə bu gün rayonun Həzi Aslanov qəsəbəsi, 8-ci dairəvi küçəsində qeydə alınıb.**

Həmin ünvanda yaşayan 55 yaşlı Malik Mustafayev özünü asıb. Onun özünə qəsd etməsinin səbəbləri hələlik məlum deyil.

Polisdən həmçinin bildirilib ki, M. Mustafayev polkovnik rütbəsi daşıyıb. O, bir neçə ay əvvəl işdən çıxarılıb.

Faktla bağlı Xətai Rayon Prokurorluğu tərəfindən cinayət işi başlanıb, araşdırma aparılır.

Qəzet, jurnal və kitab əldə etməyin ən rahat yolu!
Siz sifariş edirsiniz, biz istədiyiniz ünvana çatdırırıq!
Xaricdə və Azərbaycanda nəşr olunan bütün qəzet və jurnallara abunə olmaq, həmçinin Rusiyada və Azərbaycanda nəşr olunan kitabları daha sərfəli qiymətə və daha qısa vaxt ərzində əldə etmək üçün sadəcə zəng etməyiniz və ya email yazmağınız kifayətdir.
Telefon: (012) 434 93 01, 434 01 33



# İstintaqı dondurulan Yunuslar

## Onlarla bağlı qərarlardan apelyasiya şikayəti verilib

**Xəbər verildiyi kimi, hazırda həbsdə olan hüquq müdafiəçiləri Leyla və Arif Yunusların həbs müddəti uzadılıb. Leyla Yunusun həbs müddəti 3, Arif Yunusun isə həbsi müddəti daha 4 ay artırılıb. Hər iki şəxsin işindən artıq apelyasiya şikayəti verilib. Yaxın günlərdə şikayətə baxılacağı gözlənilir.**

L. Yunusun vəkili Əlayif Həsənov hüquq müdafiəçisinin istintaqı ilə bağlı heç bir işin aparılmadığını bildirdi: "Leyla xanımla sonuncu dəfə oktyabrın 29-da görüşmüşəm. Cinayət işi ilə bağlı müzakirə apardıq. Leyla xanım şəkər xəstəliyindən əziyyət çəkir, səhhətində problemlər var. Təcridxanada istilik sisteminin hələ də işə salınmamasından şikayətçidir. Leyla xanımın qanunsuz həbsdə saxlanıldığını hər kəs yaxşı bilir. Niyə qanunsuz deyirik? Çünki hazırda Leyla xanımın istintaqında heç bir hərəkət aparılmır. Bu o deməkdir ki, onun həbsdə saxlanılması üçün heç bir istintaq zərurəti yoxdur".

**Vəkil bildirdi ki, hazırda L.Yunusun kamerasında özündən başqa bir nəfər məhbus var:** "Hətta Leyla Yunusa tək qalması da təklif olunub. Lakin Leyla xanım səhhəti ilə əlaqədar olaraq, tək qalmaq istəməyib. Bildiyimiz kimi, Leyla xanımın həyat yoldaşı Arif bəy də MTN-də saxlanılır. Bu müddət ərzində bir dəfə də olsun Leyla xanımın Arif Yunusla hər hansı bir əlaqə saxlamaq imkanı olmayıb".

**A. Yunusun vəkili Xaliq Bağırov hüquqlarını müdafiə etdiyi şəxsin işindən apelyasiya şikayəti verdiklərini bildirdi:** "Son olaraq onunla 3 gün öncə görüşmüşəm. Elə bir ciddi probleminin olması barədə məlumat verə bilmərik. Çünki yoxdur. Amma qanunsuz həbsinin özü ən böyük problemdir".

Xatırladaq ki, L. Yunus iyulun 30-da həbs edilib. Onun həyat yoldaşı, Sülh və Demokratiya İnstitutunun eksperti Arif Yunus isə avqustun 5-də tutulub. Onlar dövlətə xəyanətdə və maliyyə cinayətlərində ittiham olunurlar. Hər iki şəxsin istintaqını Baş Prokurorluğun Ağır Cinayətlərə Dair İşlər üzrə İstintaq İdarəsi aparır.

❑ **Cavanşir ABBASLI**

## İsa Qəmbərin sədrlik etdiyi qurumda yenilik

**Müsavat Partiyasının sabiq başqanı İsa Qəmbərin sədri olduğu Milli Strateji Düşüncə Mərkəzinin nəzdində Diskussiya Klubu yaradılıb. Bu barədə mərkəzdən verilən xəbərdə deyilir ki, Diskussiya Klubunda ilk müzakirə noyabrın 15-də keçiriləcək.**

Müzakirələr 17 noyabr Milli Dirçəliş Gününə həsr olunacaq. Mövzu ilə bağlı məruzə ilə tarix elmləri doktoru, professor İsmayıl Musayev çıxış edəcək. Düşüncə Mərkəzindən daxil olan məlumata görə, Diskussiya Klubunda Azərbaycanın ən yeni tarixi, geopolitikası, strateji-siyasi problemlərinə dair mövzuların ictimai müzakirəyə çıxarılması nəzərdə tutulur. Diskussiya Klubunun tədbirlərinin açıq keçiriləcəyi bildirilir.

❑ **E.SEYİDAĞA**

## Goranboy qatilinin qardaşı özünü asdı, atasının ürəyi partladı

**Goranboyda 7 nəfəri qətlə yetirən şəxsin qardaşı intihar edib, atası infarktdan ölüb. Goranboy Rayon Polis Şöbəsindən APA-ya verilən məlumata görə, 7 nəfəri qətlə yetirən Rafiq Hüseynovun qardaşı, 1984-cü il təvəllüdlü Afiq Hüseynov özünü asaraq intihar edib. Bu mənzərəni görən A.Hüseynovun atası Müzəffər Hüseynov infarkt keçirərək dünyasını dəyişib.**

Məlum hadisə bu il oktyabrın 1-də Goranboy rayonunun Səfikürd kəndində qeydə alınıb. Rayon sakini Diləzbər Məmmədovanın yaşadığı evə gələn kürəkəni Rafiq Hüseynov ailə-məişət münaqişəsi zəminində ov tüfəngindən və əl qumbarasından istifadə edərək arvadı Südabəni, qaynı Namiqi, qohumları Ofelya Məmmədovanı, Həvayət Məmmədovanı, Fərqanə Məmmədovanı və azyaşlı İsa Məmmədovu, habelə Diləzbəri qətlə yetirib. R.Hüseynov könüllü olaraq Goranboy Rayon Polis Şöbəsinə gəlib və hadisəni törədərkən istifadə etdiyi ov tüfəngini təhvil verib.

Qeyd edək ki, Müzəffər Hüseynov oğlunun törətdiyi qətliamdan sonra "Yeni Müsavat"a müsahibə verərək özünə ölüm arzuladığını demişdi. Bildirmişdi ki, oğlunun törətdiyi ağır cinayət onun ailə üzvlərinin də vəziyyətini ağırlaşdırıb. R. Hüseynovun qanlı olayı törədən gündən sonra Səfikürd kəndindəki ata evinin qarşısında polis postu qurulmuşdu. Həmin post bir neçə gün əvvəl Hüseynovların qapısından götürülüb. Ehtimal var ki, A.Hüseynov qardaşının törətdiyi əməl görə tüş gəldiyi qınaqlara və keçirdiyi psixoloji sarsıntıya dözməyərək intihar edib. Faktla bağlı CM-in 125-ci (qəsdən adam öldürmə) maddəsi ilə cinayət işi başlanıb.

❑ **E.MƏMMƏDƏLİYEV**

YENİ MÜSAVAT
N 271 (5980) 4 noyabr 2014



Yazarımız Tofiq Yaqubluya Azadlıq!

**"Əli Kərimli və dəstəsinə müalicəsi olmayan xəstəlik kimi yanaşıram". Bu sözləri APA-ya açıqlamasında AXCP sədrinin müavini Fuad Qəhrəmanlının "Yeni Müsavat" qəzetinin hakimiyyətin sifarişini yerinə yetirdiyi barədə ittihamlarına münasibət bildirən "Yeni Müsavat" qəzetinin baş redaktoru Rauf Arifoğlu deyib.**

# "Əli Kərimli və dəstəsinə müalicəsi olmayan xəstəlik kimi yanaşıram"

## Rauf Arifoğlu: "Bolşevik təfəkkürlü insanlardır, cəmiyyəti, müxalif düşərgəni zəhərləməklə, bulandırmaqla məşğuldurlar"

**R.Arifoğlu Əli Kərimlinin təşəbbüsü ilə bir neçə dəfə "Yeni Müsavat" və AXCP arasında münasibətlərin düzəldiyini xatırladıb:** "Adətən, seçkilər ərəfəsində münasibətlər düzəlir, seçkilərdən sonra münasibətlər korlanır. Aradan böyük bir dövr keçməsinə baxmayaraq, söhbət 2003-2014-cü illər arasından gedir, 11 il ərzində 2-3 dəfə münasibətlər düzələndə hər şey yaxşı olur, qəzetdə çıxış edirlər, redaksiyamıza gəlirlər, səhifə-səhifə müsahibə verir, şəkil çəkdirir, söylədikləri ittihamları da "unudurlar". Növbəti dəfə istəklərinə nail olmayanda, qəzeti tamamilə öz mənafelərinə uyğunlaşdıra bilməyəndə yenidən təhdid edirlər. Belə anormal vəziyyətdə qalmışıq. Ona görə də açıq demişəm ki, Əli Kərimli və siyasi mənada kültürsüz, gerilikçi, normal sivilizasiyanın və demokratiyanın qaydalarını bilməyən, mətbuat azadlığını və xüsusi şəxsə məxsus olan qəzetin sərhədlərini, azadlığını tanımayan bir dəstənin hakimiyyətə gəlməsindənsə, indiki hakimiyyətin iş başında qalması daha faydalıdır".

**R.Arifoğlunun fikrincə, Əli Kərimli və partiyasının hakimiyyətə gəlmək şansı yoxdur:** "Çünki bir ovuc qalıblar. Təsəvvür edin ki, Əli Kərimlinin yanında "ən böyük adam" Fuad Qəhrəmanlıdır. Hətta müxalifət təşkilatı kimi kadr potensialı olmayan bir təşkilatın hakimiyyətə gəlmək şansı yoxdur. Amma bu şansları olsa belə, hesab edirəm ki, bu cür zəka və yanaşma ilə hakimiyyətə gəlmək Azərbaycan üçün böyük, qarşısıalınmaz bir fəlakət ola bilərdi. Şükürlər olsun ki, onların hakimiyyətə gəlmək şansları yoxdur və olmayacaq da. Fuad Qəhrəmanlı bu dəstənin ən parlaq simalarından biridir, böhtan, şər və təhqir leksikonu kifayət qədər genişdir, əsas missiyası və funksiyası Müsavat Partiyası və "Yeni Müsavat"ı hədəfə götürməkdir. Bu dəstənin siyasətdəki rolu ancaq siyasi mühiti bulandırmaq, insanlara böhtan atmaq, onları şantaj etmək, reketçilik, ayrı-ayrı vəzifəli şəxslərlə gizli əlaqəyə girərək əllərindəki media gücündən yararlanıb, rüşvət almaq kimi əməllərdən ibarət olacaq".

**R.Arifoğlu dözməkdən başqa çarələrinin olmadığını dilə gətirib:** "Bolşevik təfəkkürlü insanlardır, cəmiyyəti, müxalif düşərgəni zəhərləməklə, bulandırmaqla məşğuldurlar. Lakin dözməkdən başqa çarəmiz



yoxdur. Çünki dözümlü, tolerant olmaq, hətta səni təhqir, tənqid edən, böhtan atan qüvvələrə və şəxslərə də dözmək demokratiyanın, tolerantlığın əlifbasında yer alıb. Bizim ürəyimiz genişdir, onlara qucaq açmasaq da, hər halda, ürəyimizdə onların tənqid, təhqir və böhtanlarına da yer var və təhqirlərini, böhtanlarını özləri ilə bir yerdə ora gömür, dəfn edirik".

# Müxalifətdən İŞİD-ə qoşulanlar varmı?



**Nüşabə Sadıxlı:** "Müsavatda belə bir üzv yoxdur"



**Sərdar Cəlaloğlu:** "Radikal qüvvələrin toruna düşən insanlar var"



**Xəzər Teyyublu:** "KXCP millətçi partiyadır"

**Hazırda dünya İŞİD problemi ilə üz-üzə qalıb. Demək olar ki, bütün ölkələrdən bu terror təşkilatının tərkibində vuruşanlar var. Azərbaycan da bu ölkələr sırasındadır. İŞİD-in tərkibində vuruşan azərbaycanlılarla bağlı məlumatlar yayılmaqdadır. Bəzi məlumatlara görə, hazırda İŞİD-in tərkibində 600-ə yaxın azərbaycanlı var.**

Maraqlıdır, görəsən, müxalifət partiyalarının üzvlərindən İŞİD tərkibində döyüşənlər varmı?

**Müsavat başqanının müavini Nüşabə Sadıxlı** müsavatçılıq ideologiyasında bu cür hallara yol verilmədiyini qeyd etdi: "Müsavatda belə bir üzv yoxdur. Ola da bilməz. Olsaydı, yəqin ki, bilərdik. Çünki bizlər müsavatçılıq ideologiyası ətrafında birləşmişik. Bu ideologiyada günahsız insanların vəhşicəsinə öldürülməsi, amansız qətllər, intiharlar qeyri-mümkündür. Biz Müsavat olaraq, daim belə hallara qarşı mübarizə aparmışıq. Müsavat təkcə Azərbaycanda deyil, bütün dünyada baş verən qətlləri pisləyir və mümkün qədər bunlara qarşı öz mövqeyini nümayiş etdirir".

**ADP sədri Sərdar Cəlaloğlu partiyasında bu cür hallara diqqət yetirildiyini söylədi:** "Biz əvvəldən deyirdik ki, Azərbaycanda real müxalifət sıxışdırılandan sonra yerini radikal müxalifət tutacaq. Qısa zamandan sonra məlum oldu ki, radikal-islam çox sürətlə inkişaf etdi. "Əbubəkr" məscidinin partladılması, silahlı qruplaşmalar yaradılması bunun göstəricisi, demokratik qüvvələrin xalqla ciddi təmasda olmamasının nəticəsidir. Radikal qüvvələrin toruna düşən insanlar var, bundan sonra da olacaq. Partiyamızda olan insanların, hətta ayrılan üzvlərimizin belə yanlış yola düşməsi qeyri-mümkündür. Çünki üzvləri qəbul edərkən biz onların düşüncələrini ciddi yoxlayırıq. İŞİD-in özü təzə bir şey deyil. Çünki vaxtilə İslam tarixində Həsən ibn Əs-Sabbahın başçılığı ilə "Həşşaşilər hərəkatı" adında terror təşkilatı var idi. İndi İŞİD-in atdığı addımları vaxtilə bu terror qrupu atmışdı. Onlar düşünürdülər ki, nə qədər amansızlıqlar etsələr, bir o qədər cənnətə düşəcəklər. Onlar da ən çox müsəlman xalqlarının qanına susamışdılar. Bu baxımdan İŞİD yeni hadisə deyil".

**KXCP sədrinin müavini Xəzər Teyyublu da təmsil etdiyi partiyadan üzvlərin İŞİD-ə qoşulmalarının mümkünsüz olduğunu qeyd etdi:** "Bu müharibə olduqca acınacaqlı hala gəlib. Azərbaycanlılarla bağlı həyəcanlı məlumatlar alınır. KXCP-dən İŞİD-də vuruşanların olması kimi fikirləri heç ağılıma belə gətirmirəm. Belə bir şey yoxdur və ola bilməz. Sıralarımızda daha çox Qarabağ veteranlarıdır. KXCP millətçi partiyadır. İŞİD-ə qoşulan insanlar ciddi şəkildə araşdırılmalıdır. Onların hansı xətlə getmələri aydınlaşmalı və qarşısı dərhal alınmalıdır. Düşünmürəm ki, demokratik düşərgədən İŞİD-ə qoşulanlar olsun. Çünki bizlər Azərbaycan demokratiyası uğrunda mücadilə aparırıq".

❑ **Cavanşir ABBASLI**

# Orxan Kərimov yenə məhkəməyə müraciət edəcək

## Keçmiş təhsil naziri ilə onun və müavininin güdazına getdiyini deyən sabiq məmur Ali Məhkəmədən ədalət gözləyir

**Təhsil Nazirliyinin keçmiş əməkdaşı Orxan Kərimov Ali Məhkəməyə müraciət etməyə hazırlaşır. Əvvəlki iki instansiya məhkəməsində uduzan O.Kərimov Ali Məhkəmədən ədalət gözləyir. Bu barədə musavat.com-a danışan müsahibin sözlərinə görə, hüquqlarını sonadək müdafiə etməkdə israrlıdır.**

Əvvəlki iki instansiyada iddiasının təmin olunmamasına rəğmən, Təhsil Nazirliyinin keçmiş əməkdaşı hüquqlarını sonadək müdafiə edəcəyini bildirir. "İstəyirəm ki, bu məsələ sivil qaydada, məhkəmə yolu ilə həll olunsun. Ölkə məhkəmələri iddiamı təmin etməsələr, Avropa Məhkəməsinə müraciət edəcəm. Amma bu işin Avropa Məhkəməsinə gedib çıxması ayıbdır. Bilirəm ki, Avropa Məhkəməsi mənim xeyrimə qərar verəcək. Ancaq niyə bu addımı ölkə məhkəmələri etmir? Niyə əlimdə kifayət qədər faktlar ola-ola günahsız olduğumu sübut edə bilmirəm?"

**Onun sözlərinə görə, günahsız olduğu bəlli olduğu halda, hakimlər bunu rəsmiləşdirmək istəmir:** "Necə olur ki, Apelyasiya Məhkəməsinin hakimi buna baxır, sözümüzlə razılaşır, amma sənədə qol çəkmir? Vəzifəli şəxs olmadığım halda, tələbə köçürmələri ilə bağlı mənə qarşı ittiham irəli sürülüb. Bu, gülməli bir işdir. Hüquq fakültəsinin birinci kurs tələbəsi də başa düşür ki, bu maddənin subyekti deyiləm. Həmçinin həmin dövrdə Azərbaycanda olmamışam, bunu təsdiq edən rəsmi sənədlər var. Tələbə köçürmələri ilə bağlı sənədlərdə isə başqa adamların imzası, qolları var. Mənə cinayət işi açıldığı halda, onların heç adını çəkən yoxdur. Bu boyda biabırçılıq olmaz".

O, həbsində hansısa qüvvələrin, kimlərinsə maraqlı olduğunu da vurğulayıb: "Məni həbsdən buraxanda da çətinliklə etdilər, ölkə prezidenti müdaxilə etdikdən sonra həbsdən çıxdım. Heç əməliyyat olunmağıma imkan vermək istəmirdilər, kimlərsə bunda maraqlı idi. İndi də ədalətli hökmün verilməsi üçün sanki bir sehirli çubuq gözləyirlər".

**O.Kərimov qeyd edib ki, hazırda üstündə cinayət işi olduğu üçün işləyə də bilmir:** "Üstümdə cinayət işi, şərti cəza var. Dövlət qulluğunda işləməyimə məhkəmə qərarı ilə iki illik məhdudiyyət qoyulub. Bu cinayət işində qanunsuzluqlar çoxdur, mənə aid bir şey yoxdur".

**Qeyd edək ki, Təhsil Nazirliyinin korrupsiyada ittiham olunaraq cəza alan əməkdaşı Orxan Kərimov bir müddət əvvəl sensasiya yaradacaq sənədlər açıqlayıb. "Yeni Müsavat"a açıqlamasında**



Orxan Kərimov

**onunla bağlı çıxarılan məhkəmə qərarından narazı qaldığını da vurğulayıb. Nazirliyin maliyyə şöbəsinin sabiq müdir müavini Orxan Kərimov 3 il sınaq müddətinə şərti cəzaya məhkum olunub. Onun sözlərinə görə, indiyədək verilən məhkəmə qərarları qanunsuz və ədalətsizdir:** "Eyni zamanda cinayətkarların himayə edilməsidir. Düşünürəm ki, ölkə başçısı bu məsələdə öz mövqeyini bildirəcək. Mənim Cinayət Məcəlləsinin 311-ci maddəsi ilə ittiham olunmağın tam qanunsuzluqdur. Bu maddə rüşvətxorluqdur, bu maddəni mənə vermək olmaz. Çünki mənim tələbə köçürmək sahəsində səlahiyyətim yoxdur. Deməli, bu rüşvəti ala bilmərəm, buna görə mənə belə ittiham irəli sürülə bilməzdi. Onlar bu qanunsuzluğa getdilər. Görünür, məqsəd kimlərinsə himayə olunmasıdır. Gerçək iştirakçılar kənarda qaldılar və bu işə aidiyyəti olmayan mən faktiki olaraq mühakimə olundum".

**O.Kərimovun əlində olan sənədlərdə isə qanunsuz tələbə köçürmələrində əli olan şəxslərin imzası var:** "Həmin rəsmi sənədlərdə universitet rektoru nazirliyə yazır ki, tələbələrin sənədləri araşdırılıb nazirliyin təlimatına uyğun olduğu yoxlanılsın. Əvvəlki təhsil naziri Misir Mərdanov də işçisinə tapşırıq verir və bu, yoxlanılır. Nazir daha sonra rektora cavab verir ki, məsələ araşdırılıb və köçürməyə etiraz etmirik. Ancaq sonradan həmin köçürülən tələbələrin bir neçəsinin köçürməyə qədər heç bir universitetdə oxumadığı məlum olub. Bu, cinayətdir. Bu zaman kimdir günahkar? Mən nə araşdırmada iştirak etmişəm, nə də həmin sənədlərdə imzam var. Bu, cinayətdir və elə isə cinayətdə iştirakı olan adamlar hanı? Biz məhkəmədə onların da ifadə verməsini istədik, ancaq məhkəmə bunu etmədi. Hətta mən xaricdə əməliyyat olunduğum zaman tələbə köçürməsi baş verib. Həmin adam Təhsil Nazirliyinin qəbul otağında oturub özünü Orxan Kərimov kimi təqdim edib insanlardan pul alıb. Qəbul otağında onun rahat rüşvət almasına kim şərait yaradıb? Bu işlə bağlı maraqlar bəzi dairələrdə o qədər güclüdür ki, hətta prezidentin xoş niyyətindən sonra da istədiklərini etdilər və mən cəza aldım".

Qeyd edək ki, O.Kərimovun redaksiyamıza təqdim etdiyi sənədlərdə qanunsuz tələbə köçürmələrinə sabiq nazir Misir Mərdanovun şəxsən razılıq verdiyi və sənədləri imzaladığı əks olunub. Sənədlərdə həmçinin o vaxtkı nazir müavini İlham Pirməmmədovun da adı və imzası var. Nazirliyin əməkdaşları, ilk növbədə müavin İ.Pirməmmədov araşdırma prosesində iştirak edərək tələbələrin qanuni olaraq təhsil aldıqlarını və test üsulu ilə daxil olub-olmadığını "dəqiqləşdirib". Bu araşdırmalara bəzi universitetlərin rektorları da qatılıb.

Xatırladaq ki, Təhsil Nazirliyində şöbə müdirinin müavini işləyərkən həbs edilmiş Orxan Kərimov 2011-ci il iyunun 6-da həbs olunub. O, Cinayət Məcəlləsinin 308 (vəzifə səlahiyyətlərindən sui-istifadə) və 311-ci (rüşvət alma - passiv rüşvətxorluq) maddələri ilə ittiham olunub və 3 il sınaq müddətinə şərti cəza alıb.

❑ **Röya RƏFİYEVA**

# Tanınmış politoloqdan müxalifətlə bağlı ilginc açıqlamalar

## "Söyüş söyən, tərbiyəsizlik edən adamlarla üz-üzə durmaq istəmirəm"

**Oktyabrın 25-də Müsavat Partiyasının növbəti Məclisinin iclası keçirilib. Müsavat başqanı Arif Hacılı bildirib ki, 121 nəfərdən 51 nəfəri iclasda iştirak edir və bu səbəbdən yetərsay olduğundan, iclas keçirilə bilər.**
**Bundan sonra iclas Müsavatın himni ilə başlayıb. Sonra Arif Hacılı iclasın gündəliyini səsləndirib. O bildirib ki, sərbəst Məclis üzvlərinin seçkisi davam edəcək, həmçinin Divana seçkilər keçiriləcək.**
**"Şərq-Qərb" Araşdırmalar Mərkəzinin rəhbəri, siyasi analitik Ərəstun Oruclu ilə söhbətimizə ermənilərin 2015-ci ilin qondarma "soyqırım" şousunu darmadağın etmək üçün Bakı ilə Ankaranın atmalı olduğu birgə addımları müzakirə etməklə başladıq. Ancaq müsahibənin növbəti bölümündə ölkəiçi bir sıra məsələlərə real yanaşmasını ortaya qoyan tanınmış politoloq müxalifətin bəzi qaragüruhçu çevrələri ilə bağlı açıqladığı sensasion fikirləri ilə düşərgədə durumun nə qədər ağrılı olduğuna işıq salmış oldu.**

***- Ərəstun bəy, məlumat var ki, ermənilərin "soyqırımı" tədbirlərinə qarşı Bakı və Ankara hücum diplomatiyasını işə salıb, birgə tədbirlər həyata keçiriləcək. Sizcə, daha nələr olmalıdır ki, hələlik biz bunu müşahidə etmirik. Antiermәni siyasətdə hansı boşluqlar var?***

- Mən, düzü, ümumiyyətlə, o sahədə iş getdiyini görmürəm. Halbuki həqiqətən məsələ kifayət qədər ciddidir və mütləq o istiqamətdə intensiv iş aparılmalıdır. Ola bilər ki, bu gün Avropa ölkələrində, Rusiyada Heydər Əliyev Fondunun təbliğatı elə o məqsədlə aparılır. Onun nə qədər effektiv olduğunu zaman göstərəcək. Amma hər halda, konkret olaraq Qarabağın işğal altında qalması, erməni dövlətinin işğalçı olması ilə bağlı heç bir fəaliyyət görmürəm. Bu gün rəsmi KİV-ləri götürsək, orda əsasən Heydər Əliyev Fondunun fəaliyyətindən söhbət gedir. Ola bilər ki, bu, elə həmin məsələ ilə bağlıdır. Amma məncə, burda daha həssas məsələlər seçmək olardı.

***- Siz müstəqil ekspert kimi qondarma "soyqırım" iddialarına qarşı fəaliyyət, düşməni zərərsizləşdirmək üçün deyək ki, Azərbaycan tərəfinə təqdim etmək üçün plan-konspektə, yaxud təkliflər paketinə maliksinizmi?***

- Adətən təkliflər paketi müraciət olanda hazırlanır. Müraciət olmadan o rəyi, fikri, təklifləri dinləmək üçün iradə olmayanda onun üzərində işləməyə də dəymir. Çünki bu, adətən səmərəsiz işdir. Biz dəfələrlə müxtəlif məsələlərlə bağlı təkliflər vermişik. Amma o təkliflərə heç kim diqqət yetirməyib. Siz dediyiniz təkliflər paketi isə artıq çox ciddi bir sənəddir, onun üzərində işləmək, xüsusi detalları nəzərə almaq lazımdır. Bu, elə bir şey deyil ki, beş dəqiqəyə yarım səhifəlik nəsə yazasan. Bunun üzərində işləmək üçün konkret sosial-siyasi sifariş olmalıdır. Bilməlisən ki, bunu qəbul edəcəklər, üzərində işləyəcəklər, ola bilər o, mükəmməl olmasın, yaxud onun təkmilləşməsinə ehtiyac olsun. Ehtiyac olmayan yerdə belə təklifləri hazırlamağın mənası yoxdur, çünki səmərəsi yoxdur.

***- Belə çıxır ki, hakimiyyətdən konkret təklifləriniz istənilsə, yardım əlinizi uzatmaqdan imtina etməzsiniz...***

- Qarabağ məsələsi, ümummilli məsələlərlə bağlı mənim mövqeyim həmişə birmənalıdır. Burda hakimiyyət, müxalifət və s. kimi bölgüləri kənara qoymaq lazımdır. Amma bir şərtlə ki, prosesdə iştirak edən tərəflərin hamısı niyyətində səmimi olmalıdır.

***- 2015-ci ilin aprelindən nə gözləmək olar? Ermənilərin faydasına işləyən ciddi prosesin, yaxud erməni tərəfinin uduşunun şahidi ola bilərikmi?***

- Güman etmirəm. Çünki bu məsələdə ermənilərin bəxti gətirmədi. Hazırda biz dünyada yeni düzənin formalaşmasını görürük. Çox ciddi geosiyasi gəlişmələr baş verir, əsasən də Xəzər-Qara dəniz hövzəsi, Yaxın Şərq bölgəsini əhatə edir. Burda da Türkiyə var. Türkiyəni bu gün özündən uzaqlaşdırmaq heç bir geosiyasi oyunçunun maraqlarına cavab vermir. Bu baxımdan ermənilərin bəxti gətirmir.

**"İqtidar düşərgəsindən fərqli olaraq müxalif düşərgə haqqında tənqidi fikir əksər hallarda söyüş, təhqirlə qarşılanır"**

***- Bəs Azərbaycan və Ermənistan prezidentlərinin növbəti görüşünün bir də gələn ilin sentyabrına qalması hansı anlamı kəsb edir, hansı planın tərkib hissəsidir?***

- Əvvəlcədən demişdim ki, Paris görüşündən hansısa pozitiv bir nəticə gözləməyə dəyməz. Bunun konkret səbəblərindən biri və önəmlisi budur ki, münaqişənin tənzimlənməsi prosesində iştirak edən həmsədr ölkələr iki tərəfə bölünüb, qarşı-qarşıya durublar. Mən Qərblə Rusiyanı nəzərdə tuturam, bir tərəfdə ABŞ, Fransa, digər tərəfdə Rusiya var. Belə bir qarşıdurma olduğu şəraitdə konfliktin aradan qaldırılması, yaxud onun düzənlənməsi istiqamətində irəliləyiş ola bilər.

***- Xankəndində "mühakimə" olunan Kəlbəcər girovlarını xilas yolu ilə bağlı təklifiniz varmı?***

- Bəli, mənim bu barədə konkret təklifim var, bu barədə facebook profilimdə də yazmışam. Paris görüşündə Ermənistan növbəti dəfə ortaya destruktiv mövqe qoydu. Şübhəsiz ki, Ermənistan prezidenti bilməmiş deyildi ki, gündəlikdə hansı məsələlər olacaq. Xüsusilə də əsir və girovlar məsələsi. Bu məsələdə anlaşma əldə olunmayacağına işarə də etdi. Azərbaycanlı girovların qondarma məhkəmə prosesi məhz həmin gün başlandı. Bu, mesaj idi ki, biz hətta belə bir məsələdə də hansısa anlaşmaya getməyəcəyik. Bunun qarşısını almaq üçün və Ermənistana beynəlxalq təzyiqi gücləndirmək üçün Azərbaycan tərəf erməni əsir və ya girovlardan bir neçəsini həmsədrlərə təhvil verə bilər. Bununla da göstərə bilər ki, Azərbaycanın bu məsələni humanitar məsələ kimi həll etmək iradəsi, istəyi var. Bundan sonra qoy həmsədr kimi təmsil olunan beynəlxalq güclər Ermənistanı bu məsələdə daha konstruktiv olmağa məcbur etsinlər. Çünki söhbət insanların taleyindən gedir və insan taleyi münaqişənin həllində spekulyasiya predmeti ola bilməz. Bu, tam qeyri-insanı davranışdır.



***- Bəs indiki məqamda Sərkisyan və digər canilərə məhkəmə qurulması çıxış yolu sayıla bilərmi?***

- İndiki mərhələdə güman etmirəm. Unutmayaq ki, Sərkisyan bu gün Ermənistanın prezidentidir. Danışıqlar prosesinə gedirikse, belə bir addım o prosesə nöqtə qoyma demək olardı. Əgər bizim münaqişənin həllində alternativ təkliflərimiz, yollarımız yoxdursa, bu addımı atmaq səmərəsiz olardı.

***- Elə isə Azərbaycan Xankəndində girov saxlanılan iki şəxsə dayaq olmaqdan ötrü hansı addımları ata bilər?***

- İlk növbədə bu məsələyə beynəlxalq diqqəti çəkmək lazımdır ki, həmin insanların saxlanma şəraitinə, onlara ciddi beynəlxalq nəzarət olsun. Digər tərəfdən, onların azad olunması istiqamətində beynəlxalq səylər həyata keçirilməlidir. Bu, humanitar məsələdir. Digər tərəfdən, indiyəcən itkin sayılan insanlarla bağlı araşdırmalar, axtarışlar davam etdirilməli və gücləndirilməlidir.

***- Bildiyimizə görə, siz 2015-ci illə bağlı səslənən nikbin proqnozları bölüşmürsünüz, xüsusilə də Azərbaycanın ictimai-siyasi həyatında mühüm dəyişikliklər, siyasi açılım, islahat ili olacağı ilə bağlı...***

- Mən hakimiyyətdən heç bir islahat gözləmirəm. Ona görə ki, əslində islahat hakimiyyətin islahı demək olardı. Hakimiyyət islahatçı kimi görünmür. İndiyəcən bizim gördüyümüz bütün islahatlar kadrların yerdəyişməsi və yaxud da birinin digəri ilə dəyişməsi olub. İslahat prinsipial bir məsələdir, idarəetmənin, siyasi sistemin prinsipləri kökündən dəyişməlidir. Bu isə olmayacaq. Xüsusən ona görə olmayacaq ki, indi neft qiymətləri qeyri-sabitdir. Azərbaycan gələnilki dövlət büdcəsini 5 milyard manat kəsirlə verib, 2015-ci ildə Avropa Oyunları ilə bağlı böyük xərclər var, geosiyasi durum da ona imkan vermir, Azərbaycanın qarşısına seçim kartı qoyulur. Qərb tələb edir ki, Azərbaycan Qərbə münasibətini açıq ifadə etsin, digər tərəfdən, Rusiya Gömrük İttifaqına və Avrasiya İqtisadi Birliyinə üzv olması üçün Azərbaycana təzyiqlər edir. Belə olan halda islahatların keçirilməsi üçün optimizmə əsas yoxdur.

**"Mən hakimiyyətdən heç bir islahat gözləmirəm"**

**Ərəstun Oruclu: "İstəməzdim ki, Azərbaycanda çox qısa müddətdə hər şey ildırım sürəti ilə dəyişsin"**

***- Administrasiya rəhbəri Ramiz Mehdiyevin kadr problemi ilə bağlı məlum çıxışına diqqət çəkmək istərdim. Bu kadr çatışmazlığı şəraitində özünüzü hakim düşərgədə hansısa bir postda görürsünüzmü?***

- Bugünkü mövcud şərtlər çərçivəsində, xeyr. İstənilən bir insan öz potensialını, əgər o, qurucu insandırsa, yalnız islahat şəraitində istifadə edə bilər. Əks halda, bu, siyasi baxımdan ləkələnməkdir. Potensial baxımdan isə onu səmərəsiz tükətməkdir, başqa heç bir şey deyil.

***- Ötən həftə sizin sabiq Müsavat başqanı İsa Qəmbərlə həmsöhbət olduğunuz zaman çəkilən fotonu gördüm. Yəqin ki, müxalifət düşərgəsi ilə bağlı fikir mübadiləniz oldu. Siz bu çevrədəki durumu necə dəyərləndirirsiniz?***

- Açığı, siyasi müzakirələrimiz olmayıb. Sadəcə bir tədbirdə görüşmüşdük. Müxalif düşərgə ilə bağlı kifayət qədər pessimistəm. Bundan artıq heç nə demək istəmirəm. Ona görə ki, iqtidar düşərgəsindən fərqli olaraq müxalif düşərgə haqqında tənqidi fikir əksər hallarda söyüş, təhqirlə qarşılanır. Mənim 51 yaşım var, söyüş söyən, tərbiyəsizlik edən adamlarla üz-üzə durmaq istəmirəm. Çox təəssüf, müxalif düşərgənin böyük bir hissəsində bu cür yanaşma var. İstənilən tənqid söyüş, ittiham, şər, böhtanla qarşılanır. Ona görə mən müxalif düşərgə ilə bağlı ümumiyyətlə, heç nə danışmamağa üstünlük verirəm. Danışmamaq ən yaxşısıdır.

***- Belə görünür ki, iqtidar nümayəndələri tənqidi fikrə daha dözümlü mövqe nümayiş etdirirlər, nəinki ayrı-ayrı müxalifətçilər. Bu aqressiyanın səbəbi nədir, uzun illərin nəticəsiz mübarizəsinin yorğunluğumu?***

- Açıq danışaq. Axıra qədər səmimi olmaq lazımdır. Mənim iqtidar haqqında mövqeyim kifayət qədər tənqididir, kəskindir. Amma iqtidar tərəfindən mən təhqirlər, təhdidlərlə çox az üzləşmişəm. Bu, nadir halda olub. Amma müxalifət haqqında çox konstruktiv tənqidi fikir top-tüfənglə qarşılanıb. Ona görə də mən o barədə danışmamağa üstünlük verirəm. Bir də ki, iqtidarı tənqid edirsən ki, bundan nəticə çıxartsın, müəyyən nəsə götürsün. Müxalifəti tənqid etməyin sadəcə olaraq mənası yoxdur. Aqressiyanın səbəbinə gəldikdə, müxalifət pis şəraitlə üz-üzə qoyulub, hər tərəfdən məhdudiyyətlər, məhrumiyyətlər, bundan qaynaqlanan uğursuzluqlar və o uğursuzluqlardan qaynaqlanan psixoloji gərginlik... Mən demirəm ki, niyə elədirlər. Bunu ümumiləşdirmək də istəmirəm, müxalif düşərgə çox müxtəlifdir. Amma təcrübə göstərir ki, müxalifət haqqında bir tənqidi fikir söyləməklə söyüş, təhqir, böhtan, şər hədəfinə çevrilmək olar. İqtidar haqqında isə etiraf edim ki, bu ehtimallar xeyli dərəcədə aşağıdır.

***- Son vaxtlar kütləvi aksiyalara yenidən start verilib. Amma sizi aksiyalarda görmürük...***

- Heç maraqlanmıram da. Aksiyalar mənim üçün maraqlı deyil. Açığı, aksiyalara qatılmağı zəruri saymıram.

***- Yəni mitinq mərhələsi ötüb keçdi?***

- Bilmirəm. Bunu siyasi inkişafın dinamikası göstərəcək. Bugünkü gün birinci mübarizə modelləri tapılmalıdır.

***- Təklifləriniz varmı?***

- Yeganə təklifim yalnız və yalnız özümün təmsil etdiyim və edəcəyim çevrəyə ola bilər. İctimai təkliflər vermək fikrindən çox uzağam.

***- Belə anlaşıldı ki, siz 2015-ci seçki ilində də müxalifətin aktivinə yazılası nəsə görmürsünüz. Elədirmi?***

- Müxalifət bu gün çox müxtəlifdir. Bəzən görürsünüz kimsə iddia edir ki, müxalifət odur, başqası deyir "yox, müxalifət mənəm". Bunun özü artıq pis tendensiyadır. Yaxud bu, müxalif ifadəsinin məzmununu anlamamaqdan, ya da müxalifəti, müxalif olmağı biznesə çevirmək, monopoliyaya almaq istəyindən irəli gəlir. Hər iki hal qüsurludur, onu anlamamaq da, anlayıb marağı üçün istifadə etmək də. Mənim fikrimcə, müxalif düşərgə bu gün Azərbaycanda səpələnmiş ayrı-ayrı qruplardan, fərdlərdən ibarətdir. Kim o düşərgəni səfərbər edib sanballı namizədlərlə parlament seçkilərinə gedə biləcəksə, istisna etmirəm ki, müəyyən uğur əldə oluna bilər. Amma kardinal uğurdan söhbət gedə bilməz. Bunun üçün heç vaxt da imkan vermir. Şəxsən mən istəməzdim ki, Azərbaycanda çox qısa müddətdə hər şey ildırım sürəti ilə dəyişsin. Çünki sonra illər lazım olacaq ki, bu dəyişmənin fəsadları aradan qaldırılsın. O da hələ mümkün olsa. Yəqin bildiniz nəyi nəzərdə tuturam.

***- Şübhəsiz ki, inqilabi yoldan danışırsınız.***

- Bəli. Mən o yolu məqbul hesab etmirəm. Bu, dağıdıcı yoldur və ölkəni çökdürür. Zorakılıqla hakimiyyətə gələnlər zorakılıqla da davam edirlər. Onda nə mənası var?

❑ **Elşad PAŞASOY**



# “İsa Qəmbər Müsavatdakı prosesə müdaxilə etməlidir”

## Mediadakı müsavatçılar ittihamların səngiməsi üçün tərəfləri dialoqa çağırdılar

**Müsavat Partiyasının qurultayından 40 gündən artıq vaxt keçməsinə baxmayaraq partiya daxilində gərginlik, qarşılıqlı ittihamlar bitmək bilmir. Başqan Arif Hacılı oktyabrın 31-də keçirdiyi mətbuat konfransında da hər kəsin olanları arxada buraxıb Müsavatı birgə irəliyə aparmaq işinə girişməli olduğunu müraciət şəklində bəyan etdi. Ancaq narazıların ittihamları, onlara isə qarşılıqlı cavablar davam edir.**

Məsələnin bu qədər uzanması sıravi müsavatçıları ciddi narahat edir. Yerlərdən redaksiyamıza ünvanlanan müraciətlər bunu deməyə əsas verir. Narahat olanlar sırasında mediada çalışan müsavatçılar da yer alır. Onların bir neçə tanınmışı bizimlə söhbətində Müsavat Partiyasında qurultay sonrası söz-söhbətin hələ də davam etməsinə münasibət bildirdilər. Eyni zamanda tərəfləri bu məsələyə artıq son qoymağa çağırdılar.

**Musavat.com saytının redaktoru Xalid Kazımlı bildirdi ki, qurultaydan əvvəl polemikalar təbii idi:** “Qurultaydan bir neçə gün, hətta bir-iki həftə sonra müəyyən mübahisələrin, müəyyən anlaşılmamazlıqların olması da təbiidir. Amma qurultaydan 40 gün keçəndən sonra hələ də mübahisələrin davam etməsi, çəkişmələrin, gərginliyin azalmaması göstərir ki, partiya daxilində müəyyən həll olunması çətin olan problemlər var. Burada insan faktoru ilə bağlı məsələlər də, subyektiv və obyektiv səbəblər də ola bilər. Ancaq şəxsən mən hesab edirəm və istəyirəm ki, yaxın günlərdə bu qovğa bitməlidir. Müsavatdan əvvəl eyni prosesləri yaşayıb dağılmış, kiçilmiş partiyaların aqibətini göz önünə gətirmək lazımdır. Müsavatın böyüklüyü, perspektivi naminə bu çəkişmələr durdurulmalıdır. Çəkişmələrin davamı tərəflərin hər ikisinin nüfuzuna zərbə vuracaq. Mübahisələrin, mübarizənin yeni dalğasını gələn qurultaya saxlamaq lazımdır”.

**Gunxeber.com saytının baş redaktoru, “Yeni Müsavat” qəzetinin redaktoru Zabil Müqabiloğlu isə bildirdi ki, bugünkü vəziyyətin yaranmasında bir qrupun qurultayın qərarlarını şübhə altına alması əsas rol oynayıb:** “Hətta bir müddət sonra qurultayın nəticələrini tanımadıqlarını bəyan elədilər. Gözlənilirdi ki, bu, partiyada gərginliyə səbəb olacaq. Belə də oldu. İndi mübahisələrin, qarşılıqlı ittihamların artmasının, səngiməməsinin də səbəbi var. Bir qrup adam gərginliyin qalmasını istəyir. Məqsədləri müxtəlif ola bilər. İstənilən halda bu, partiyaya zərbə vurur. Telekanallar hər gün Müsavat daxilində gedən proseslərə yer ayırırlar, birtərəfli qaydada təbliğat aparılır. Bu təbliğata şərait yaradan insanlar başa düşməlidirlər ki, illərdir Müsavatın adını çəkməyən telekanallar niyə indi belə edirlər. Müsavatda gərginliyin olması birmənalı şəkildə hakimiyyətin maraqlarına xidmət edir. Bunu hər kəs bilməlidir, davranışlarında nəzərə almalıdır. Mən müsavatçı olaraq çox istərdim ki, arzuolunmaz vəziyyət aradan qalxsın. Bunu bir çağırış kimi də qiymətləndirmək olar. Məncə, İsa Qəmbərin prosesə müdaxilə eləməsinin zamanı çatıb, bəlkə də bir qədər gecikib”.

**“Yeni Müsavat” qəzetinin müxbiri Elşad Paşasoy bildirdi ki, İsa Qəmbərin başqanlıqdan getməsindən sonra müəyyən gərginliklərin yaşanacağı məlum idi. Amma Müsavat kimi oturuşmuş bir partiyanın daxilində ziddiyyətlərin bu qədər davam eləməsi, gərginliyin sonsuza qədər uzanması nə Müsavatın özü üçün, nə Azərbaycan üçün, nə də ümumiyyətlə demokratiya üçün faydalıdır:** “Qurultayla bağlı birmənalı fikir yoxdur. Qubad İbadoğlu ilə Arif Hacılı arasında gedən mübarizənin məntiqi nəticəsi hər kəsə bəllidir. Amma tərəflərin üz-üzə oturub müzakirələr açması, bir çay masası ətrafında prosesləri müzakirə eləyib yekun qərara gəlməsi çox böyük ehtiyac var. Çox qəribədir ki, hər kəs müzakirələrə hazır olduğunu, qapısının açıq olduğunu bildirir, amma kimsə gedib bir-birinin qapısını döyməyə sanki ehtiyat edirlər, özlərinə sığışdırmırlar. Amma onların bir-birinin qapısını döyməyə, birlikdə müzakirə aparmağa haqqı var. Ortadakı neqativləri aradan qaldırmaq üçün bu, ən optimal yol olardı. Əgər bu gün müsavatçılar bir-birinin fikirlərini həzm edə bilmirlərsə, belə çıxır ki, uzun illərdən bəri tənqidlərə məruz qalan iqtidar da düşərgə ilə bağlı münasibətini haqq edir. Umu-küsüləri mütləq aradan qaldırmaq lazımdır. Bu məsələlərin ortaq bir nöqtəsi tapılmalıdır. Hesab edirəm ki, hətta Müsavat lideri, keçmiş başqan İsa Qəmbərin moderatorluğu ilə tərəflərin bir araya gətirilməsi, bir ağsaqqallıqla yaranmış problemin çözülməsi çox optimal yol olardı. Onu da deyim ki, Müsavat daxilində fraksiya yaradılması çıxış yolu deyil. Bu, ziddiyyətlərin bir az da dərinləşməsinə kömək edə bilər. Düzdür, partiyada tənqidi münasibətin olması rəhbərliyin daha məsuliyyətli çalışmasına təkan verər, amma eyni zamanda ziddiyyətləri də dərinləşdirməyə təkan verə bilər. İndiki halda Qubad bəylə Arif bəyin qarşı-qarşıya oturub müzakirələr aparması və tərəfdarlara çağırış edib ixtilaflara son qoymaları çıxış yoludur. Arif Hacılının başqanlıq elədiyi partiyada Qubad bəyin Mərkəzi İcra Aparatının rəhbəri və Məclisin sədri kimi fəaliyyət göstərməsi indiki situasiyada çıxış yolu variantıdır. Mən buna çağırıram”.

❑ **Etibar SEYİDAĞA**

# Vurğun Əyyubun yeni vəzifəsinə Müsavatdan reaksiyalar...

**Müsavatın sabiq Divan üzvü Vurğun Əyyubun Xəzər Universitetində kafedra müdiri vəzifəsinə təyin olunması ilə bağlı xəbərlər yayılıb. Üzvü olduğu partiyada bu informasiya birmənalı qarşılanmayıb. Bir tərəf Vurğun Əyyubu hakimiyyətə işləməkdə ittiham edir, digər tərəf isə bu təyinatı normal qarşılayır.**



**Mustafa Hacıbəyli:** “İlham Əliyevin portretinin altında oturub işləməklə, özünü İsa Qəmbərdən artıq müsavatsevər göstərmək bir araya sığmır...”



**Elman Fəttah:** “Bu, münasibət bildirilisi bir məsələ deyil, çünki burada qeyri-adi heç nə yoxdur”

Azərbaycan reallığında müxalifətin tanınmış simalarının belə vəzifələrə layiq görülmələri az-az təsadüf olunan hadisələrdəndir. Ona görə də əleyhdarları V.Əyyubu hakimiyyətə işləməkdə ittiham edirək deyirlər ki, bu vəzifə ona iqtidardan hədiyyədir. Amma hər bir insanın hansısa sahədə fəaliyyət göstərmək sərbəstliyini vurğulayanlar da var. Bu cür düşünənlərə görə, insan öz ailəsini dolandırmaq hüququna sahibdir və buna görə də hardasa işləyib gündəlik ehtiyacını qarşılamalıdır.

Müsavat funksionerlərinin yeni təyinatla bağlı fikirlərini öyrəndik.

Partiyanın Məclis üzvü, başqan Arif Hacılının qardaşı **Mustafa Hacıbəyli** savadlı insanların Azərbaycanda vəzifələrdə işləmələrinə daim ehtiyac duyulduğunu söylədi: “Təəssüf ki, iqtidar savadlı insanların vəzifə tapmalarına çətinlik yaradır. Bu siyasəti ciddi tənqid edirik. Müxalifətdə minlərlə mütəxəssis var ki, dövlətimizə və cəmiyyətimizə öz sahələrində xeyir verə bilərlər. Amma hakimiyyət onlara bu imkanı yaratmır. Hətta özəl şirkətlər belə müxalifətçini işə götürməyə çəkinir. Şəxsən mən özüm işsizlik problemi ilə üz-üzəyəm. Neçə şirkət məni işə dəvət edib. Lakin müxalifətçi, xüsusilə Arif Hacılının qardaşı olduğumu bildikdən sonra mənə vəzifə vermək istədiklərini, lakin çəkindiklərini deyiblər. Eyni vəziyyətlə İsa bəyin övladları da üzləşib. Xaricdə yüksək təhsil almalarına baxmayaraq, hər bir özəl şirkət onlara iş verməkdən imtina edib. Bacım Zaqatalada həkimdir. İki il əvvəl attestasiyada 100 bal yığmışdı. 60 bal tələb olunduğu halda. Savadlı həkim olmasına baxmayaraq, onu Mərkəzi Xəstəxanadan çıxarıb, kənd xəstəxanasına göndərdilər. Biz bunları artıq göz altına almışıq”.

**M.Hacıbəyli Vurğun Əyyubun təyinatı ilə bağlı daha sərt danışdı:** “Vurğun bəyin yaxşı mütəxəssis olmasını danmıram. Amma Azərbaycanda yetərincə savadlı mütəxəssislər var ki, hakimiyyətlə əlaqələri olmadığı, naxçıvanlı olmadıqları, eləcə də müxalifətçi olduqları üçün vəzifə üzünə həsrətdirlər. Mən şadam ki, Vurğun bəy bu məhrumiyyətlərin üstündən keçə bilib. Son dövrlər Vurğun bəyin özünü İsa Qəmbərdən daha yüksək müsavatsevər göstərməsində suallar yaranır. Düşünürəm ki, Vurğun bəyin kafedra müdiri olması gənclərimizin savadlı böyüməsinə töhfələr verəcək. Onu da düşünürəm ki, Vurğun bəyin də ailəsi var, onları dolandırmalıdır. Əminəm ki, Vurğun bəyin Xəzər Universiteti kimi bir yerdə kafedra müdiri təyin edilməsi Prezident Administrasiyasından gizli ola bilməzdi. Müxalifətin tanınmış simasına hakimiyyətin xəbəri olmadan vəzifə verilməsini mümkün saymıram. Hakimiyyət Vurğun bəyin vəzifəsini çox yaxşı bilir. Mən onun işləməsinə qarşı deyiləm. İlham Əliyevin portretinin altında oturub işləmək, eyni zamanda özünü İsa Qəmbərdən artıq müsavatsevər göstərmək bir o qədər inandırıcı görsənmir. Bu, anormallıqdır. Təəssüf edirəm ki, partiyada müəyyən adamlar özlərini İsa bəydən artıq müsavatsevər kimi göstərirlər”.

**Müsavat başqanının müavini Elman Fəttah Vurğun Əyyubun vəzifə almasına normal yanaşdığını bildirdi:** “Bu, münasibət bildirilisi bir məsələ deyil. Burada qeyri-adi heç nə yoxdur. Şəxsən mən başqan müavini olaraq, buna normal baxıram. Partiya daxilində bu təyinatla bağlı səslənən fikirlər də normaldır. Müsavatda demokratik mühit var. Buna qarşı çıxmaq fikrim yoxdur”.

❑ **Cavanşir ABBASLI**



Ənvər Seyidəliyev

# Ağsunun icra başçısı KXCP üzvlərinə təzyiq edir

## Partiya durumla bağlı bəyanat verməyə hazırlaşır

**Ağsu rayonunda bələdiyyəyə namizəd olacaq KXCP üzvlərinə təzyiqlər edilir. KXCP-nin Ağsu rayon şöbəsinin sədri Yaqub Babalının verdiyi xəbərə görə, Ağsu Rayon İcra Hakimiyyətinin başçısı Ənvər Seyidəliyev bələdiyyə seçkilərinə qatılacaq müxalifətçilərə namizəd olmaması üçün təzyiqlər edir.**

Onun sözlərinə görə, KXCP Məclisinin üzvü, Daşdəmirbəyli kəndindən namizəd olan Bəxtiyar Məmmədova və daha səkkiz nəfərə namizəd olmamaları üçün təzyiq göstərirlər. Həmçinin KXCP-nin bir neçə üzvünə qohumlarının vasitəsilə namizəd olmamaları üçün təsir göstərilir.

KXCP sədrinin müavini Xəzər Teyyublu məsələ ilə bağlı musavat.com-a bildirib ki, təkcə Ağsuda deyil, əksər rayonlarda bu problemlər var: “Partiya üzvlərinə bu cür maneələr yaradılır. Üzvlərimizə namizədliyini verməmək üçün təzyiq edilir, hətta hədə-qorxu gəlinir. Bu, yolverilməz haldır. Buna ictimai təpki olmalıdır. Belə vəziyyətin yaranması biabırçılıqdır. Məsələn, Şamaxıda namizədliyini verməyə çalışan partiya üzvləri süründürməçiliyə məruz qalır, onların "Beynəlxalqbank"da bank hesabları olduğu halda, yenidən pul verib bank hesabı açdırmalarını tələb edirlər. Halbuki bu adamlar bələdiyyə üzvüdürlər və hesabları da var. Bu, qanun pozuntusudur".

X.Teyyublu qeyd edib ki, baş verənlər partiya rəhbərliyi tərəfindən müzakirə edilir və partiya durumla bağlı bəyanat verməyə hazırlaşır.

❑ **Röya RƏFİYEVA**

YENİ MÜSAVAT
N 271 (5980) 4 noyabr 2014



# İtirilmiş fürsət

Xalid KAZIMLI

**Bu qədər yol asfaltlanır, körpü tikilir, tunel qazılır, yol ötürücüsü düzəldilir, metro stansiyası açılır, yol qovşaqları yaradılır, di gəl, paytaxtın ayağını, başını bir yerə yığmaq olmur ki, olmur.**

Yol polisinin evakuatorları dayanma-durma qaydalarını pozan maşınları gecə-gündüz cərimə meydançalarına daşıyır, cərimələyir, amma küçələrdəki sıxlığı azaltmaq, nəqliyyatın hərəkətini tənzimləmək heç cür mümkün olmur. Hər tərəfdə sıxlıq, hər yanda basabas, tıxacdır.

Meqapolis saxlamaq çox çətin iş imiş. Xüsusilə də bu meqapolis həm neftdən gələn milyardlardan öz nəsibini alaraq böyüyürsə, həm də işsizlikdən, imkansızlıqdan paytaxta sığınan insanların hesabına günbəgün dolursa, onu idarə etmək olduqca çətindir.

Bəzən şişirdərək deyirlər ki, ölkə əhalisinin tən yarısı Bakıdadır. Əvvəllər bu, bir qədər həqiqətə uyğun olmayan qənaət kimi görünə bilərdi, amma yollara, küçələrə, şəhərətrafı qəsəbələrə, orada məskunlaşan yüz minlərlə insana baxırsan və bu rəyə gəlirsən ki, elə olar, Bakı ən azı 5 milyona yaxın adamı qanadının altına alıb.

Əyalətlərdən insanların axışıb paytaxta gəlməsinin olduqca təbii səbəbləri var: iş, çörək, dolanışıq dərdi, övladların təhsili, qaz, işıq, su kimi təbii ehtiyacları ödəmək arzusu və s. Rayonlardakı çatışmazlıqlar insanları paytaxta üz tutmağa vadar edir.

Hamının bir yerə yığılması isə çoxlu problemlər yaradır: elektrik xəttinin yüklənməsi, yolların tıxanması, qaz təchizatında problemlər, təhsil ocaqlarının çatışmazlığı və sair və ilaxır.

Proses davam edir. İctimai həyata atılmış gənclərin hansısa bir yolla ilişib paytaxtda - əyləncə, komfort, qazanc vəd edən şəhərdə qalması halları ilə yanaşı, hər gün yeni-yeni ailələrin burada məskunlaşması prosesində də fasilə yoxdur. Rusiyada, Ukraynada yaxşı qazanc əldə edən, özlərinə dolanışıq düzəldən yüz minlərlə kənd adamı bir müddətdən sonra vətənə dönəndə öz doğulduğu kənddə ev tikdirmir, məhz paytaxtdan ev alır.

Adam bir neçə il sonranı düşünür, dəhşətə gəlir. İndinin özündə paytaxtdan 15-20 kilometr kənarda yaşayan insanlar şəhərə girmək üçün bir-iki saat vaxt itirirlər. İki ildən sonra şəhərə daxil olmaq ümumiyyətlə mümkün olmayacaq.

Göydələnlər, ikimərtəbəli yollar və sair müasir şəhər infrastrukturları bu axının qarşısında dayanmaq, artan tələbata cavab vermək gücündə deyil. Bakıya rahatlıq dalınca gələnlər həm özlərini, həm də paytaxtın köhnə sakinlərini sıxıntıya salmaqdadırlar.

Ən pisi odur ki, paytaxtda yaranmış və gündən-günə ağırlaşmaqda olan problemi hamı görür - ölkə rəhbərliyi də, şəhər təsərrüfatının başçıları da, əlaqədar strukturlar da.

Bəlkə də bəzi toplantılarda bu barədə müzakirələr gedir, həll yolları axtarılır, ancaq açıq-aydın görünür ki, qəbul edilən qərarlar da, həyata keçirilən tədbirlər də yetərli deyil.

Heç insanların bu sıxlıqdan, basabasdan, bezdirici durumdan usanıb geriyə köç dalğasına qapılacaqlarını da gözləmək əbəsdir. Belə şey olmayacaq.

Ali məktəblərin, bir sıra iri müəssisələrin, hətta nazirlik və sair dövlət strukturlarının paytaxtdan kənara çıxarılması kimi layihələrin də sözü gedən problemin həllinə faydası çox olmayacaq. Boşalmış yerlər sürətlə tutulacaq.

Bu günü 10 il öncədən görmək, uzaqgörən olmaq lazım idi. O zamanlar paytaxtda görünməmiş tikinti bumu yaşananda çox şeyləri həll etmək olardı. Ölkədə ikinci bir böyük şəhərə, inzibati mərkəzə ehtiyac vardı. Qazaxıstan prezidenti Nursultan Nazarbayev Almatının on il sonrasını gördü və ölkəsinə yeni, daha gözəl, daha rahat, daha abad bir paytaxt (Astana) saldı. Biz onun qədər müdrik ola bilmədik.

Ona görə də bu gün hamı əziyyət çəkir. Bəlkə də hələ ziyanın düz ortasındayıq və geri qayıtmaq şansımız var. Ancaq tendensiya ondan ibarətdir ki, paytaxtda və onun ətrafında sonuncu sot torpaq qalana qədər mübarizə, qapışma, çarpışma davam edəcək.

İndilikdə isə günümüz budur: adi bir yağış, sıradan bir qar yağmuru şəhəri iflic vəziyyətinə sala, yüz minlərlə adamı naəlac durumda qoya bilər.



# Qubad İbadoğlu tərəfdarlarını yenidən Müsavat qərargahına toplayır

## Görüşdə MNTK-nın cavabı müzakirə ediləcək; fraksiya məsələsinin də gündəmdə olacağı gözlənilir

**Müsavat Partiyasındakı başqanlıq seçkilərindən bir aydan çox vaxt keçməsinə baxmayaraq, seçki ətrafında yaranan narazılıq səngimək bilmir. Başqanlığa keçmiş namizəd Qubad İbadoğlu yenidən tərəfdarlarını partiyanın mərkəzi qərargahına toplayır. Görüşün noyabrın 8-i saat 17:00-da keçirilməsi planlaşdırılır.**

Məlumata görə, belə bir görüşün keçirilməsində əsas məqsəd Q. İbadoğlunun qurultayla bağlı MNTK-ya verdiyi şikayətin cavablandırılmasına münasibət bildirmək və bundan sonrakı fəaliyyət istiqaməti ilə bağlı irəli sürüləcək təkliflərin təqdimatıdır. Bundan əlavə, görüşdə yaxın zamanlarda yaradılması gündəmdə olan fraksiya məsələsinin də müzakirə ediləcəyi gözlənilir.

**Q. İbadoğlu tərəfdarları ilə keçirəcəyi görüş barədə sosial şəbəkələrdə paylaşdığı statusda bunları qeyd edib:** "Bu şəxsi münasibətlərdən qaynaqlanan bir problem deyil. Bunlar Müsavatın yönəlməsi, siyasi və strategiyası ilə bağlı fikir ayrılıqlarıdır. Bu məsələlər kinin, nifrətin üzərində formalaşmayıb. Bununla bağlı çağırışlar sözdə yox, əməldə olmalıdır. Partiyanın bütün strukturlarında bir qrupun təmsilçiləridir. Peşəkarlıq, təcrübə, ictimai nüfuz nəzərə alınmadan bütün strukturlar formalaşıb. İndi təklif olunur ki, gəlin bir yerdə işləyək. İşləmək necə olur?! Müəyyən istiqamətlərdə fəaliyyət imkanları olmalıdır. İşləmək o demək deyil ki, biz Müsavat Partiyasında üzv olaraq qalmalı, ağzımızı bağlamalı, gözümüzü yummalıyıq. Bu adamlar da nizamnamə pozuntusu ilə fəaliyyətlərini davam etdirsin, partiyanı istədikləri istiqamətə aparsınlar. Birgə işləmək odur ki, partiyanın siyasətinin formalaşmasında bizim də imkanlarımız olmalıdır və qərarların verilməsində iştirak etməliyik. Bu adamlar bunları düşünmürlər, strukturlar tam formalaşandan sonra deyirlər ki, gəlin hər şeyi unudaq. Belə idarəçilik olmur. Bu siyasi partiyadır, heç kəsin şəxsi müəssisəsi deyil ki, istədiyi şəxsləri hara istəsə təyin etsin. Nəticədə də partiyanı bu vəziyyətə gətirib çıxarsın. Partiya nüfuzdan düşür və o adamlar da öz nüfuzlarını itirirlər. Bu məsələlər sözdə yox, əməldə olmalıdır. Qurultaydan sonra narazılığını ifadə edən adamlar var. Bir aydan çox müddətdə birini də çağırıb soruşmayıblar ki, sənin problemin, dərdin nədir. Yəni bu deyilənlər sadəcə mətbuat, ictimai rəy üçündür. Əməldə bunu görmürük".

8 noyabr görüşündə başqanlıq seçkilərində qalib gələn Arif Hacılının və başqanlığa keçmiş namizəd Tural Abbaslının tərəfdarlarının iştirak edib - etməyəcəyi maraq doğurur. Çoxları bu görüşə fraksiya yaradılması günü kimi baxır.

**T. Abbaslı bu görüşə münasibət yanaşdığını söylədi:** "Mən belə görüşlərə təbii baxıram. Çünki partiyanın qərargahı müsavatçılarındır. Orada partiya üzvləri tərəfindən istənilən görüşün keçirilməsi təbiidir. Görüşə icazə verilməməsi antidemokratik addım olardı. Gələcəkdə də bu cür görüşlərin keçirilməsi vacibdir. Qubad bəy və tərəfdarlarının hüququdur ki, istədikləri vaxt geniş və kiçik miqyasda qərargahda görüş keçirsinlər. Partiyanın hər bir resursu üzvlər arasında bərabərdir. Belə görüşlər təqdirəlayiqdir. Narazı müsavatçıların sonda yenə qərargahda toplaşmaları, hər hansı bir məsələ ilə bağlı məsləhətləşmələri onların bir daha partiyaya bağlılığının göstəricisidir. Onları dəstəkləyirəm. Gələcəkdə hər hansı bir məsələ ilə bağlı tərəfdarlarımla görüşə ehtiyac yaranarsa, böyük məmnuniyyətlə qərargahda keçirəcəm. Çünki qərargah hamımızın evimizdir. Bütün məsələlərin qərargahda həllinin tərəfdarıyıq".

**T. Abbaslı 8 noyabrda keçiriləcək görüşdə iştirak etməyəcəyini dedi:** "Qubad İbadoğlunun 8 noyabrda keçirəcəyi görüş bir daha qeyd edirəm ki, nizamnamə çərçivəsində onun hüququdur. Bu addımı alqışlayıram. Görüşdə iştirakıma gəlincə, bunu düzgün hesab etmirəm. Çünki bu görüşdə Qubad bəyin qurultayla bağlı MNTK-ya etdiyi şikayətə verilən cavabın müzakirəsi olacaq. İştirakımın düzgün olmamasına gəldikdə isə seçkidən sonra mən qurultay günü qanun pozuntusunun olmadığını və seçki prosedurlarından razı qaldığımı bildirmişəm. İndi seçki ilə bağlı edilən şikayətə verilən cavabın müzakirəsində iştirakım düzgün olmaz. Müsavatçılarda belə fikir formalaşa bilər ki, mən dünənə qədər seçkidən razı qaldığımı bildirmişəm, indi isə narazılıq edirəm. Həmin fikirlərimdə yenə qaldığım üçün görüşdə iştirakımı düzgün hesab etmirəm. Amma təbii ki, tərəfdarlarımdan kim istəsə, iştirak edə bilər. Çünki orada səslənən fikirlər hamımız üçün maraqlıdır. Mətbuatdan da maraqla izləyəcəm. Qubad bəyin MNTK-nın verdiyi rəyə cavabı bir müsavatçı kimi mənə maraqlıdır. Bəlkə bilmədiyimiz nələrsə var, yaxud baş verir. Bütün bunlar açıq müstəvidə həll olunmalıdır".

**Müsavat başqanının müavini Elman Fəttah da görüşdə iştirak etməyəcəklərini bildirdi:** "Hazırda partiyada Arif bəyin tərəfdarları yoxdur. Kimsə deyirsə, "mənim tərəfdarım", o insan Müsavatın tərəfdarı deyil. Bu görüşlə bağlı partiyada hər hansı bir müzakirə aparılmır. Müsavatçılar harada istəyirlər, yığışa bilərlər. Amma söhbət mətbuatda səslənən fraksiya yaradılması ilə bağlı toplantıdan gedirsə, bunu özbaşınalıq kimi qiymətləndirirəm. Mən o görüşdə iştirak etməyi düşünmürəm. Çünki zona müşavirələri ilə bağlı rayonlarda olacam. Ümumiyyətlə, partiya rəhbərliyi bugünlərdə rayonlarda olacaq. Çox vacib işlərimiz var".

❑ Cavanşir ABBASLI

# Yalnız partiya sədrlərinin qatıldığı piket keçiriləcək

## İlk dəfə Azərbaycanda belə bir aksiya olacaq

**Siyasi Partiyaların Demokratiya və İnsan Haqları Mərkəzinə daxil olan partiyaların rəhbərlərinin iştirakı ilə piket keçirilməsi gözlənilir. Etiraz aksiyasının siyasi məhbuslara azadlıq tələbi ilə keçiriləcəyi deyilir. Bu barədə redaksiyamıza sözügedən mərkəzdən məlumat daxil olub.**



Məsələni dəqiqləşdirmək üçün Siyasi Partiyaların Demokratiya və İnsan Haqları Mərkəzində təmsil olunan Azərbaycan Xalq Partiyasının sədri Pənah Hüseynlə danışdıq. P. Hüseyn bildirdi ki, adıçəkilən mərkəzdəki partiyaların sədrləri piket keçirilməsi məsələsini qurumda müzakirə ediblər: "Siyasi məhbusların azad olunması və ictimai sektora basqılara son qoyulması tələbi ilə piket keçirilməsi müzakirələri gedib. Amma hələlik piketin dəqiq günü, yeri bəlli deyil. Prinsipcə razılaşdırılıb ki, belə bir piket olsun".

P. Hüseyn dedi ki, müzakirəsi aparılan piket özəlliyi ilə fərqlənəcək: "Əgər piket baş tutacaqsa, ilk belə aksiya olacaq ki, yalnız partiya sədrləri iştirak edəcək. Çünki bu piketdə ancaq partiya sədrlərinin iştirakı nəzərdə tutulur. Siyasi Partiyaların Demokratiya və İnsan Haqları Mərkəzinə daxil olan 11 partiyanın böyük əksəriyyəti belə bir piketin keçirilməsinin tərəfdarıdır. Yalnız partiya sədrlərinin iştirakı ilə piket keçirilməsi etiraz aksiyası formalarından biridir. Digər başqa formalarda aksiyaların keçirilməsi də müzakirə olunub və piket barədə ümumi siyasi qərar var".

AXP sədri onu da dedi ki, mitinq məsələsi də gündəlikdədir. Amma konkret nə vaxt mitinq keçiriləcəyi müzakirə edilmir. Onun sözlərinə görə, istənilən an bu məsələ gündəmə gələ bilər.

❑ E.SEYİDAĞA

YENİ MÜSAVAT
N 271 (5980) 4 noyabr 2014





# Ümid Partiyasında karyera quruculuğu mövzusunda təlim keçirilib

**Noyabrın 1-də Ümid Partiyasının Mərkəzi Qərargahında partiyanın Gənclər Təşkilatı və Gender Bərabərliyi şöbələrinin təşkilatçılığı ilə gənclərə "Karyera quruculuğu" mövzusunda təlim keçirilib.**

Təlimin keçirilməsində əsas məqsəd gənclərə iş axtarmaq üçün lazımi bilik və vərdişlərin aşılanması, onların işsizlik problemindən yaxa qurtarmasına kömək etmək və fərdi keyfiyyətlərinin daha da inkişaf etdirilməsinə töhfə vermək olub. Bundan başqa, təlim iştirakçıları işsizlik problemlərinin həlli, karyera quruculuğu, işlərin perspektivli qurulması, biznesin inkişafı mövzularını müzakirə ediblər. Təlim müddətində gənclər professional CV və motivasiya məktubunun hazırlanması qaydalarını, iş yerlərinə müraciətin edilməsi və müsabiqələrdən keçmək üçün bacarıqların artırılmasını, iş yerlərində danışıqların səmərəli aparılmasını, güzəştlərin əldə edilməsini və inamın yaradılmasını, intervüdən uğurlu keçməyin yollarını öyrəniblər.

Təlimlərdə həmçinin özünü kəşf etmə, resursların qiymətləndirilməsi, peşə seçiminə təsir edən amillər, hədəfin müəyyənləşdirilməsi, gələcəyin peşələri, səmərəli iş axtarma mexanizmləri və sair kimi mövzular haqqında maraqlı diskussiya aparılıb.







Qeyd edək ki, layihə gənclər tərəfindən çox müsbət qarşılanıb və təlim iştirakçıları əldə etdikləri məlumatların onların karyera quruculuğunda çox mühüm rol oynayacağını qeyd ediblər. Ümid Partiyası Gender bərabərliyi şöbəsinin müdiri Həcər Abbaslı bildirib ki, karyera quruculuğu mövzusunda növbəti təlimin Sumqayıt şəhərində keçirilməsi nəzərdə tutulur. Həmçinin ilin sonuna kimi müxtəlif mövzularda təlim və seminarların keçirilməsi planlaşdırılır.

Xatırladaq ki, GT fəaliyyət planına əsasən 3 aydan artıqdır ki, gənclər üçün beynəlxalq aləmə birbaşa çıxış yolu olan ödənişsiz ingilis dili dərslərinə və conversationlara, habelə müxtəlif mövzularda seminarların keçirilməsinə start verib. Gənclər üçün hər həftə xaricdə təhsil, iqtisadiyyat, siyasət, hüquq, psixoloji mövzularda yerli və beynəlxalq dərəcəli ekspertlərin iştirakı ilə təlimlər keçirilir.



# Ümid Partiyası toplantı keçirdi

**Noyabrın 3-də Ümid Partiyasının Mərkəzi Qərargahında partiya sədri, millət vəkili İqbal Ağazadənin sədrliyi, müavin və şöbə müdirlərinin iştirakı ilə müşavirə keçirilib. Müşavirə oktyabr ayında görülən işlərin yekunlarına həsr olunub. Müavinlərin və şöbə müdirlərinin görülən işlərlə bağlı hesabatları dinlənilib, gələcək planlar müzakirə olunub.**

Ümid Partiyasının sədri, millət vəkili İqbal Ağazadə Rəyasət Heyətinin üzvlərinə tapşırıq və tövsiyələrini verib.







**Bu səhifə Ümid Partiyası tərəfindən təqdim edilmişdir**



# Zombi coğrafiyası

Zamin HACI
zaminhaci@gmail.com

**Hörmətli oxucularımızın, zəhmətkeşlərimizin məlumatı vardır: nəqliyyat nazirinin oğlu, biznesmen Anar Məmmədov dünyada tanınan "National Geographic" jurnalını bizim dildə də buraxmağa başlayıbdır, artıq 2 sayı çıxıbdır.**




Bizi narahat edən odur ki, Anar müəllimin adı cürbəcür pis işlərdə hallanır, Ziya müəllim yolları pis günə salıb, camaat da avtobusun çölündən yapışıb gedir... Zarafat edirəm, qəti belə narahatçılığımız yoxdur, xüsusən Qəbələdə yeyilən ayıdan və jurnalist Fərahim İlqaroğlunun qarnına, sifətinə dəyən təpiklərdən sonra. Bizi ictimai problem narahat edir.

Məsələ ondadır ki, adının mənası "Milli Coğrafiya" olan bu jurnal hər iki sayında ana yurdumuz haqda mənfi təəssüratlar yaratmaqdadır. Birinci sayın üz qabığında yekə bir dinozavr şəkli vermişdilər, altından da yazılmışdı: "Ye onu, tiranozavr!" Kimi yesin, niyə yesin - bu haqda açıqlama yox idi. Bəlkə yazsaydılar Anar müəllim "Qarant-Holdinq"in xətti ilə dövlət büdcəsi hesabına xaricdən təzə tiranozavtobuslar gətirib, minib gedəcəyik ermənilləri Qarabağdan çıxartmağa - xalq sevinərdi. Amma izahat yox idi, elə çıxırdı ki, dinozavr jurnalın oxucularını, sevgili millətimizi və uca xalqımızı yeməyə təşviq edilir. Bu bizə yaraşarmı? Analoqu olmayan iqtisadi inkişaf şəraitində heç kim bizi yeyə bilməz.

İndi ikinci azərbaycandilli nömrənin üz qabığında verilən foto və yazı isə lap çoxmənalıdır. Təsəvvür edin, əcaib və adı-familiyası bilinməyən bir həşərat şəkli verilib, altından da çox yekə, böyük ehtimalla hətta İrəvandan görünən hərflərlə *(düşmən dəyirmanına su tökürlər)* yazılıb: "Gerçək zombilər - diri ölülər haqda".

Jurnal bununla nə demək fikrindədir? Zombi kimdir, diri ölü nədir? Bu jurnalı oxuyan xalqımız pessimizmə yuvarlanar. O cümlədən, xaricilər, şəhərimizin nəğməli qonaqları elə zənn edərlər ki, Azərbaycanın milli coğrafiyası pis-pis heyvanlarla, qorxunc dinozavrlar, zombilər, həşəratlarla zəngindir. Əgər sən düz adamsansa, nə üçün jurnalın üz qabığına Ana Kürün, Dəlidağın, Qobustanın, sevimli Bakımızın, gülərüzlü Şəkimizin, su basan səkimizin, dama qoyduğumuz su bakımızın, elə bayaq bəhs elədiyim avtobusun çölündə gedən atletik bədənli, cəsur gənclərimizin şəklini qoymursan?

Zombilərin sənə hansı xeyri dəyibdir, Anar müəllim? Nə üçün onları bu qədər təbliğ edirsən?

Hələ bu adam Amerika ilə nəsə dostluq təşkilatı qayırmışdır, mən biləni tez-tez Vaşinqtonda qonaqlıq verir. *(Bakıda avtobusa 20 qəpik verəndə bilin ki, bununla hansısa konqresmeni maliyyələşdiririk. Dal qapıdan düşənlər qabağa gəlsin, heç kim dovşan kimi qaçmasın)*. Böyük ehtimalla həmin qonaqlıqlara bu jurnaldan da aparır, respublikamız haqda, yuxarıda qeyd elədiyim kimi, mənfi təsəvvürlər oyadır. Mən dövlət rəhbərliyinin yerində olsaydım *(xoşum gəlir bu ifadə tərzindən)* Anar Məmmədovu işdən çıxarardım.

Dinozavrdan söz düşmüşkən, metronun təzə rəisi Zaur müəllim Hüseynovun da fəaliyyəti milli coğrafiya jurnalımızda yaxşı işıqlandırılmalıdır. Bundan qabaqkı rəis Tağı müəllim xalqımızın yadında daha çox "əəə, bir-bir", "nə dızıldaşırsınız", "burcutma" kimi sözlərlə qalmışdı, Zaur müəllim isə metro xətlərini boyamaqla məşğuldur. Deyir hazırda bənövşəyi xətti qayırırıq, ümumən Bakı metrosunda göy, sarı, mavi, yaşıl, qara, ağ, çəhrayı kimi xətlər olacaqdır. Ondan sonra sarımtıl, qarayaçalan, göyümtül, badımcani, lacivərdi və sairə rənglərdə xətlər olacaq. Elə bil zalım oğlu rəssam Van Qoqdur. Bir balaca stansiyanı açana qədər 5 il əlləşirlər, heç ondan danışmır. "Avtovağzal" stansiyasını tikib qurtara bilmir, deyir Ağdama yaşıl metro çəkəcəyik.

Arzu edək "Milli Coğrafiya" jurnalımızın növbəti sayı metrodakı əcaib varlıqlara - vaqonların qapısı ağzında dayanıb düşənlərə imkan verməyən heyvanlara həsr olunsun.

# Məmmədovların ətrafındakı qətllərin ilginc xronologiyası

## Nazirin özünün və oğlunun mühafizəsində olmuş bir neçə şəxs sonradan müəmmalı şəkildə öldürülüb; bu olayların heç birinin üstü açılmayıb

**2013-cü ilin iyul ayının 17-də Türkiyənin "Hürriyet" qəzetində Yalçın Bayerin bir köşə yazısı dərc edildi. Yazıda nəqliyyat naziri Ziya Məmmədovun oğlu Anar Məmmədovun mühafizəçisi olan bir Türkiyə vətəndaşının güllələnməsindən bəhs edilirdi.**

"Azeri Bakanın türk korumasına ne oldu?" başlıqlı yazıda bildirilirdi ki, İsmayıl Gənc adlı mühafizəçi Anar Məmmədovun başqa cangüdənləri ilə atışma zamanı güllə yarası alıb və onun harada olduğu, öldü-sü-qaldısı bəlli deyil. Bundan sonra "Yeni Müsavat" qəzeti olaraq dəfələrlə yazılar dərc etdik. Nazir oğlunun vəkili Ruslan Məmmədov hər dəfə "Hürriyet" qəzetinin təkzib verəcəyini söylədi. Təkzib isə olmadı, sadəcə R.Məmmədovun qəzetə göndərdiyi mövqe dərc edildi.

"Hüriyyet" isə bugünlərdə sözügedən olayla bağlı daha ətraflı məlumat yaydı. Məlum oldu ki, ötən il mayın 14-də Antalyada, Ziya Məmmədovun oğlu, Azərbaycan-Amerika Alyansının və , "Garant Holding"in prezidenti Anar Məmmədovun mühafizəçiləri arasında qanlı olay yaşanıb. Hadisə A. Məmmədovun mühafizəsinin rəisi olan 51 yaşındakı təqaüddəki zabit İsmayıl Gəncələ mühafizəçi, 35 yaşındakı Kubilay Göl arasında baş verib. Mübahisə böyüyüb, hər iki tərəf silaha əl atıb. Kubilay Göl daha çevik hərəkət edərək İsmayıl Gənci yaralayıb. 2013-cü il, dekabrın 22-də Antalyadakı 4-cü Ədliyyə Hüquq Məhkəməsinə təqdim edilən iş üzrə ifadələr alınıb. Kubilay Göl istintaqa verdiyi ifadədə bildirib ki, A. Məmmədov onu çağıraraq İsmayıl Gənci öldürməsini istəyib, amma o bundan imtina etdim. Kubilayın bildirdiyinə görə, A. Məmmədov bu qətl üçün ona 500 min dollar



təklif edib. A. Məmmədov hesab edirmiş ki, İsmayıl Gənc onun Azərbaycandan Türkiyəyə köçürdüyü qara pullardan oğurlayırmış.

K. Gölün bildirdiyinə görə, o, İ. Gənci öldürməkdən imtina etsə də, bir müddət sonra onunla üz-üzə gəlməli olublar. K. Göl istintaqa deyib ki, bu para oğurluqları ilə bağlı məsələni müzakirə etmək üçün onlar İ. Gəncələ Antalyadakı Əski Sənaye deyilən yerdə görüşüblər. Mübahisə silaha qədər böyüyüb. Mühafizəçi istintaqçılara "Mən vurmasam, o məni vuracaqdı"- deyib.

İ. Gənc Məmmədovlar ətrafında olan və güllə yarası alan ilk mühafizəçi deyil. Hələ onu bəxti gətirmişlərdən də saymaq olar. Salyan qəbiristanlığında Anar Məmmədovun mühafizəçisi olmuş Nizami Dadaşov adlı şəxsin qəbri var. Bu şəxs 2000-ci ilin mayına qədər A. Məmmədovun mühafizəçisi olub. İdmançı olan həmin şəxs güllə ilə vurularaq öldürülüb. Rəsmi versiyalarda onun avtomobil qəzasında həlak olduğu iddia edilib. Amma camaat arasında belə söhbət gəzir ki, meyiti yuyan molla "mərhumun bədənində güllə yarası var" sözlərini ağzından qaçırıb. Bundan sonra bir neçə gün yoxa çıxıb, sonra isə bu söhbəti tamamilə "unudub".

N. Dadaşovun öldürülməsindən bir müddət sonra Ziya Məmmədovun başqa bir mühafizəçisi, Şimali Qafqazdan olan Altaf adlı idmançı yoxa çıxıb. Mühafizəçi Azərbaycan vətəndaşı olmadığına görə onun necə yoxa çıxdığı, öldü-sü-qaldısı bu gün də bilinmir. Z. Məmmədovun daha bir mühafizəçi, Masallıdan olan Eldəniz Qurbanovu 2008-ci il, martın 1-də qətlə yetiriblər. Bu günə qədər bu qətlin hansı şəraitdə törədilməsi ictimiyyətdən gizlədilər. Məlum olan odur ki, 2008-ci ildə Nəsimi rayon prokuroru Aqşin Ziyadov dələduzluqda təqsirləndirilən Emin Əmirovun bu iş üzrə şahid qismində dindirilməsini tələb edib. Prokurorun sorğusuna əsasən E.Əmirovun Ağır Cinayətlərə Dair İşlər üzrə Məhkəmədə olan cinayət işi ona göndərilib. A.Ziyadov özü mətbuata deyib ki, E.Əmirov bu işdə yalnız şahid qismində dindirilir. Prokuror istintaq sirrinə əsaslanıb məlumat verməyib.

Z.Məmmədovun Cəmil adlı cangüdəni isə vaxtilə Salyanın Qaraqaşlı kəndində yaşayıb. O, nazirin mühafizəsindən ayrılandan sonra ciddi təqiblərə məruz qalıb. Onu uzaq Sibirdə aşkarlayıb qətlə yetiriblər.

Nazir oğlu A. Məmmədovun da ətrafında ölüm kabusu dolaşır. Bu il iyulun 11-də "Garant Sığorta" ASC-nin İdarə Heyətinin üzvü Natəvan Əliyevanın meyiti yaşadığı ünvanda aşkarlanmışdı. Salyandan olan bu xanımın evində usta işləmiş şəxs tərəfindən öldürüldüyü açıqlanmışdı.

Göründüyü kimi, Məmmədovların adı ətrafında bir sıra qaranlıq və müəmmalı qətl işləri var.

**❑ E.HÜSEYNOV**

# Mustafa Hacıbəyli qardaşının ona vəzifə verməməsindən danışdı

## "Hər halda, mən Müsavat rəhbərliyində təmsil olunmaq istəyirəm"

**Müsavat Partiyasının başqanı postuna Arif Hacılının seçilməsindən sonrakı dövrdə diqqəti çəkən məqamlardan biri vəzifələrə təyinatlar oldu. Arif Hacılı özünə 4 nəfəri müşavir təyin etsə də qardaşı Mustafa Hacıbəyliyə bu təyinatlarda yer vermədi. Halbuki Mustafa Hacıbəyli Məclis üzvü olmaqla yanaşı, 27 sentyabr qurultayına qədər başqan İsa Qəmbərin müşaviri olub. İsa Qəmbərin başqanlıqdan getməsi Mustafa Hacıbəylinin faktiki olaraq partiyada vəzifəsiz qalmasına gətirib çıxarıb. Partiyada daim aktivliyi ilə seçilən M.Hacıbəyli hazırda sadəcə Məclis üzvüdür. Məclisə isə seçki ilə seçilib. Yəni faktiki olaraq qardaşı onu hələ heç bir vəzifəyə təyin etməyib. Bəs Mustafa Hacıbəyli bunu necə qarşılayır? Müsavat başqanı olan qardaşından buna görə narazılığı varmı? Vəzifəyə təyin olunmasını gözləyirmi?**


Mustafa Hacıbəyli

**Mustafa Hacıbəyli** bildirdi ki, 22 ildir Müsavat Partiyasının üzvüdür və sıravi üzvlükdən özək sədrliyinə, rayon təşkilatı sədrliyinə, Məclis üzvlüyünə, Məclisin komissiya sədrliyinə və başqan müşaviri postuna yüksəlib. Başqan müşavirliyindən başqa bu görəvlərin hamısına seçki ilə seçildiyini deyən M.Hacıbəylinin fikrincə, əgər Müsavat Partiyasının Nizamnaməsindən irəli gələn dəyişikliklər olmasaydı güman ki, bu dəfə Divan üzvü ola bilərdi: "Qurultaya hazırlıq üzrə Təşkilat Komitəsinin iclaslarının birində İsa Qəmbər bildirmişdi ki, əgər Mustafa Arif Hacılının qardaşı olmasaydı, mən hələ 2006-cı ildə Mustafa bəyi müavin təyin edəcəkdim. Təbii ki, mən partiyada vəzifəyə görə fəaliyyət göstərmirəm. 22 ildir Müsavatın üzvüyəm. Son illərdə başqan müşavirliyi istisna olmaqla heç vaxt Müsavatın rəhbərliyində təmsil olunmamışam. Lakin bu mənim partiyada fəaliyyət göstərməyimə mane olmayıb, bundan sonra da mane olmayacaq. Amma oponentlər müəyyən təbliğat apardılar. Görünür, təyinatlı vəzifələrə təyin olunmamağımda bunun da rolu olub. Hər halda, mən Müsavat rəhbərliyində təmsil olunmaq istəyirəm".

**M.Hacıbəyli onu da dedi ki, hələ ona vəzifə təklifi olmayıb:** "Mən təklifin olmamasını da özüm üçün faciə kimi qəbul etmirəm. Müsavat başqanı Arif Hacılı ilə bu mövzuda söhbətimiz olmayıb. Mənə hansısa vəzifə təklifi edilib-edilməməsindən asılı olmayaraq necə ki, əvvəllər Müsavatın bütün tədbirlərində iştirak eləmişəm, eyni qaydada bundan sonra da yaxından iştirak eləməyə hazıram".

**❑ Etibar SEYİDAĞA**

YENİ MÜSAVAT
N 271 (5980) 4 noyabr 2014

**“Hafka” ləqəbi ilə tanınan iş adamı Hafiz Məmmədovun iflası ötən aylar medianın ən çox müzakirə etdiyi mövzulardan biri idi. Qısa xronologiyanı xatırlayaq. Əvvəl H. Məmmədovun prezidenti olduğu “Bakı” klubunda maliyyə problemləri yaşandı, sonra o, əsas səhmdarı olduğu “Bank of Azerbaijan”ın İdarə Heyətinə rəhbərlikdən uzaqlaşdırıldı, bank bütün qapılarını bağladı.**

# “Hafka”nı diriltdən “sehrli cubuq” Məmmədovları bitirir

## Hafiz Məmmədovun əlindən alınan hər şeyi geri qaytarırlar, bir Ziya Məmmədovla şəriklikdən başqa... Məmmədovların nəhəng biznes ortağı, üstəlik, hakimiyyətdə sanballı olan, illərdir onunla rəqib kimi davranan bir regionun təmsilçisi ilə bağlarını necə qırdılar?




Rəhbəri olduğu “Baglan Group”un nəzarətində olan şirkətlərin təhvil-təslimi istənildi və hətta məhkəmə icraçıları borca görə “milyarderlər məhəlləsi”ndə villasından çıxarmaq üçün qapısına belə dirəndilər. Onun “Eurovision” ərəfəsi Bakıya gətirdiyi 500-dən çox “London taksi”sinin gömrük rüsumunu ödəmədiyi də yada düşdü, taksilər yolda saxlanıb cərimə meydançasına aparıldı. “Hafka” borclulardan yaxa qurtarmaq üçün hətta bahalı maşınlarını da avtodayanacaqlarda gizlətməli oldu.

Və qəfildən sanki nağıllardakı kimi “sehrli çubuq” işə düşdü. “Hafka”nı bankın İdarə Heyətinə yenidən rəhbər qaytardılar, AFFA da çempionatın oyunlarına getmək istəməyən “Bakı” klubu üçün 10 milyon pul ayırdı, “Nikoil bank”ın borcuna görə “Hafka”nı evindən çıxarmaq istəyən məhkəmə icraçıları da qeybə çıxdı. “London taksilər”ində tezliklə iş yerini itirmiş sürücülərin qaytarılacağı deyilir. İndi H.Məmmədov yenə işə əvvəlki kimi öz sevimli “Bentliy”sində gedir deyirlər...

H.Məmmədovun niyə vurulması haqda indiyədək bir çox versiyalar səslənib. Ona yaradılan şəraitdən başı gicəllənib, “mənəm-mənəmlik” edib; “yuxarılarla” hesablaşmaları “təmiz” aparmayıb; tapşırılan layihələri reallaşdırmağı bacarmayıb və hakimiyyətə başağrısı yaradıb və sairə. Həqiqətən də “Hafka” xarici mətbuatın gündəmində ekstravaqant oliqarx kimi düşür, müsahibələrində özündən razılığı hiss olunurdu. Onun hakimiyyətə “pul atdığı”na gəlincə, əksinə, müəyyən fondlara yığılan pulu verməkdən imtina etdiyi üçün cəzalandırıldığı da deyilirdi. Qısası, bu versiyaların hamısının yaşamaq haqqı vardı. Amma nədənsə, heç kimin ağlına belə gəlmirdi ki, “Hafka” şəriki, uzun illərin dostu, ortaq kapitalları milyard dolları keçən Z.Məmmədova görə vurula bilər. İndi- “Hafka”nın “dirilməsindən” sonra-ortada olan ən ciddi versiya məhz Z.Məmmədovla bağlı olanıdır.

“Hafka”nın vurulmasında Z.Məmmədovun marağı yox idi. Adam pul gətirən əlini niyə kəssin ki? İş adamı iflası ərəfəsi Z.Məmmədova “atam” demişdi. Amma çətin günlərində Z.Məmmədovun “Hafka”nı nəinki qoruma altına almaması, üstəlik, onunla bütün bağlantıları kəsməsi, “Qarant Holdinq”in ofisindən çıxarması ilə H.Məmmədovdan can qurtarmaq istədiyini göstərdi. Z.Məmmədov qurtuldu, “Hafka” isə batmaq ərəfəsi xilas edildi. Qəribə deyilmi? Bəlkə bu, iki nəhəng oliqarxın ittifaqına son qoymaq üçün düşünmüş bir oyun idi? Z.Məmmədovun dostluğu sınağa çəkilirdi bəlkə?

“Hafka”ya əlindən alınan hər şeyi geri qaytarırlar, bir Z.Məmmədovla şəriklikdən başqa. Özü də bu təkcə nəqliyyat naziri ilə bağlı bağlantının qırılması deyil, Məmmədovların hökmranlıq etdiyi bütün sahələrdə-neftdaşımalardan tutmuş nəqliyyat sektorunda şərikliyə qədər hamısının nöqtələnməsi deməkdir. Məntiqlə, bu aylarda “Hafka” nüfuzundan başqa heç nə itirmədi. Onu da hakimiyyətdəki mövqelərini bərpa etdikcə geri qaytaracaq. Məmmədovlar isə nəhəng bir biznes ortaqlarını, üstəlik, hakimiyyətdə sanballı olan, illərdir onunla rəqib kimi davranmış bir regionun (Naxçıvan) təmsilçisi ilə bağlarını qırdı.

Məmmədovlar bu qurulmuş tamaşada “dostlarını darda qoymaqla” da mənfi rol aldılar.

Ziya Məmmədovla sıx biznes ilişkiləri olan “Hafka” bu aylar ərzində şərikindən yalnız pislik gördü, hər halda, gələn xəbərlər belə deməyə əsas verir. Z.Məmmədov “Hafka” kimi uçuruma yuvarlanmamaq üçün onun yollarını dərhal ayırdı, biznes obyektlərini “Qarant Holdinq”in ofislərindən təcili çıxarmaqla özünü sığortaladı. Amma indi “Hafka”nın “diriləməsindən” sonra bu şərikliyin də yenidən bərpa edilməyəcəyi aydındır. Çünki Z.Məmmədovun arxasından çəkilən adamı “diriltdirlərsə”, demək, bu prosesin arxasında duranlar heç də nəqliyyat nazirinə simpatiya bəsləyənlər deyil. Yayılan xəbərlər də təsdiq edir ki, “Hafka” indi soydaşı olan Məmmədovlardan çox narazıdır və hətta o həddə ki, nazir oğlunun adı hallanan məhkəmə işinin Türkiyədə yenilənməsini yaxın çevrəsinə “ona qarşı olan ədalətsizliyin cəzası” kimi izah edir. Xatırladaq ki, nazir oğlu Anar Məmmədovun “Hafka” ilə münasibətlərinin kəskin olması ilə bağlı, hətta onun obyektini buldozerlə dağıtması ilə bağlı da çoxsaylı iddialar var.

Məmmədovların vurulacağı haqda xəbərlər yeni deyil. Hətta bu kimi xəbərlər KİV-də tirajlananda oxucular qınayır da. Amma nəzərə almaq lazımdır ki, Azərbaycan hakimiyyəti də yetkin bir orqanizmdir. Qəzavü-qədər olmasa, qolu amputasiya etmək və ya ağrıyan dişi çəkdirmək zaman tələb edir. Bu prosesdə istisna yalnız sabiq nazir Əli İnsanovdur. Onu 1 saatda qandalladılar. Amma onunla birgə həbs edilən sabiq iqtisadi inkişaf naziri Fərhad Əliyev həbsinə qədər uzun bir yol qət etdi, zəiflədildi, sonra fərmanı verildi.

Məmmədovların taleyi barədə hökmün necə olacağını demək çətindir, amma bu soyad ətrafında daha bir ciddi proses onun xeyrinə yekunlaşmadı. Daha bir proses isə hansısa bir “sehrli çubuğun” köməyi ilə Türkiyədə sifarişli qətl işi ilə bağlı yenidən başlayıb... Olmaya bu, “Hafka”nı diriltdən “çubuqdur”...

❑ **Xəbər xidməti**

# 21-ci əsrdə hansı amil rol oynayacaq?



**Hüseynbala SƏLİMOV**

**Azərbaycanda Gürcüstana sevgi həmişə böyük olub. Bu sevgi təkcə hakimiyyətlərin Gürcüstanla bağlı siyasətində ifadə olunmayıb, adi insanlar, ictimai və siyasi fəallar indi də bu ölkəyə böyük rəğbət bəsləyir...**

Hətta Gürcüstanda xristian və müsəlman icmaları arasında vaxtaşırı müşahidə olunan lokal iğtişaşlar belə bu sevgini azaltmır, onu əskiltmir.

Amma təbii ki, belə hallar tamam təsirsiz də ötüşmür, istər-istəməz münasibətlərə azacıq da olsa tərəddüd gətirir və iki ölkə arasındakı əlaqələrə kiçik də olsa kölgə salır. Bu günlərdə də belə oldu-qonşu ölkədə dini icmalar arasında baş verən iğtişaşlar Azərbaycan telekanallarının aparıcı mövzusuna çevrildi...

Amma yenə də bunda da daha çox xoş niyyət duyuldu, heç kim Gürcüstana Azərbaycanın onun üçün etdiklərini xatırlatmadı. Amma xatırladası çox şeylər vardı. Fəqət, bu dəfə də azərbaycanlı psixologiyası üstün gəldi - bu psixologiyaya görə isə sağ əlin verdiyini sol əl bilməməlidir...

Bunu Azərbaycanla bağlı tərif kimi qəbul etmək lazım deyil. Daxildə bu ölkəyə tərif bir o qədər də yaraşmır, əksər hallarda, xüsusən də özününkülərə münasibətdə sağ əlin verdiyini sol əl nəinki bilir, hətta onun verdiklərinin üstündən götürməyə də çalışır...

Amma Azərbaycanın qəribəlikləri də var - bu ölkə həqiqətən də dini baxımdan tolerantdır.

Buna ona görə qəribəlik deyirik ki, bütün digər parametrlərə görə belə olmamalı idi, çünki indi bu ölkədə ən kiçik yad fikrə qarşı belə çox sərt siyasi dözümsüzlük var...

Ona görə də həmişə hesab etmişik ki, dini tolerantlıq hakimiyyətin bu xüsusda apardığı siyasətin nəticəsi deyil, daha çox xalqın mental özəllikləri ilə bağlıdır.

İslamın ənənələri də burada az rol oynamır - islam dini iudaizmin və xristianlığın bəzi doqmalarına, hətta fundamental prinsiplərinə şübhə etsə də özündən əvvəlki təkallahlıq dinlərinə hər halda ehtiramla yanaşır...

Mötədil müsəlman kilsəni və ya sinaqoqu da Allahın evi hesab edir. Ona görə də mötədil müsəlmanlar arasında dini ayinlərə və simvollara qarşı sayğısızlığa çox az təsadüf edilir...

Düzdür, dini radikallar son bir neçə ildə islam haqqında elə bir fikir formalaşdırıblar ki, bunun nəticələrini aradan qaldırmaq üçün bəlkə də on illər lazım gələcək...

Amma indi hər iki ölkədə - Azərbaycanda və eləcə də Gürcüstanda yaşayan müsəlmanlar nə İŞİD-in güclü təsirini hiss edir, nə də ki, başqa bir radikal dini qruplaşmanın...

Bu mənada dərhal demək olardı ki, Gürcüstan da Azərbaycan kimi gənc dövlətdir. Amma qəsdən bu fikri önə çıxarmadıq - siyasi institutlar və ideoloji üstqurum yeni ola bilər, amma bu xalqlar yüz illərdir ki, bir yerdə, qonşuluqda yaşayırlar...

Çox qəribədir, təxminən 20 il bundan əvvəl bir fransız siyasətçisinin yazısını oxumuşduq. O yazırdı ki, növbəti əsrdə dini amillər dünya siyasətində daha çox rol oynamağa başlayacaq. O vaxt bu fikrə bir az təəccüblənmişdik də, ona görə ki, liberalizmin qəti və son qələbəsinə əmin idik...

Amma indi dünya siyasətinə baxanda, hətta qonşuluqda baş verən prosesləri izləyəndə görürsən ki, həmin fransız siyasətçisi haqlı imiş və hal-hazırda dinin dünya siyasətindəki rolu durmadan artır...

Bu, böyük təlaş doğurmaq iqtidarında olan amildir. Bunu yalnız liberal dəyərlərin çəkisini artırmaqla kompensasiya etmək olardı. Amma qəribəsi elə odur ki, millətlər və xalqlar arasındakı fərqlər liberal dəyərlərin sayəsində həyata və yaşamağa vəsiqə alsa da, son nəticədə elə həmin dəyərlərin özünə qarşı çevrilməyə başlayırlar...

Sanki aşağılara, fərdlərə doğru yönələn dəyərlər gedib cəmiyyətin alt qatlarına, əsl ünvanına çatmır, burada kollektiv haqlar-milli və dini haqlar bir növ “filtr” rolunu oynayır, bəzən bu “filtr”i keçmək ağlagəlməz dərəcədə çətin olur...

Məsələ bundadır ki, dünyada fərdiyyətçilik ənənələri, individualizm arxayınlıq yaradacaq dərəcədə böyük kök salmayıb. İnsanlar kollektiv haqlara və dəyərlərə hələki daha çox önəm verir...

İlk baxışda bu gün Yaxın Şərqdə baş verənlər, dünya siyasətindəki dini qabarmalar və çəkilmələr Gürcüstandan da, Azərbaycandan da çox uzaqdır.

Amma dini amillərin qəlizliyi ondadır ki, onlar ürəklərə və beyinlərə tez təsir edir.

Minlərlə insan neqativ fikirləri özündən qovsa da bir insan tapılır ki, onların təsiri altına düşür.

Sabah da baxıb görürsən ki, bu bir nəfər dönüb iki olub...

YENİ MÜSAVAT
N 271 (5980) 4 noyabr 2014

**Noyabrın 4-də Azərbaycanda Aşura mərasimi qeyd olunacaq. Aşura - Hicri təqviminin ilk ayı olan Məhərrəm ayının 10-cu günüdür. Hicri təqvimi ilə 61-ci ilin həmin günündə (miladi təqvimlə 680-ci il) Həzrət Məhəmməd Peyğəmbərin (s) əziz nəvəsi İmam Hüseyn (ə) öz yaxın qohumları və silahdaşları ilə Kərbəla səhrasında faciəli surətdə qətlə yetirilib. Bu münasibətlə hər il dünya müsəlmanları, Aşura günü matəm mərasimi keçirir, Kərbəla şəhidlərini yad edirlər. Azərbaycanda da hər il olduğu kimi bu il də Aşura mərasimi qeyd olunacaq və qanvermə aksiyası təşkil ediləcək. QMİ-dən verilən məlumata görə, noyabrın 4-də Aşura günündə bir sıra məscid və ziyarətgahlarda qanvermə aksiyası keçiriləcək.**

# Bu gün Aşuradır

## Ölkə məscidlərində qanvermə aksiyası keçiriləcək; tanınmışlardan kimlər bu aksiyaya qoşulacaq?

Maraqlıdır, siyasətçilər necə, bu qanvermə aksiyasında iştirak edəcəklərmi?

**Müsavat Partiyasının başqan müavini Gülağa Aslanlı** Aşura günü ilə bağlı mərasimlərdə iştirak edəcəyini bildirdi: "Aşura günü ilə bağlı mərasimlərdə iştirak edəcəyəm. Ancaq qanvermədə məqbul səbəbdən iştirak edə bilmirəm. Şəkər xəstəsi olduğum üçün məndən qan götürmürlər".

**Azərbaycan Xalq Partiyasının sədri Pənah Hüseyn** hələ ki bu barədə planının olmadığını dedi: "Mən bu günə kimi qanvermə kampaniyasında iştirak etməmişəm. Aşura günü ilə bağlı keçirilən mərasimlərdə isə fərd olaraq iştirak edəcəyəm".

**ADP sədri Sərdar Cəlaloğlu isə qanvermə aksiyasında iştirak etməyəcəyini dedi:** "Mən özüm Quranı təhlil edirəm və gəldiyim nəticə budur ki, təriqətlərin yaranması səhv bir yoldu. Çünki Quranda da deyilir ki, hansı təriqətin, hansısa alimin Quranla bağlı fikrinin düz olmasını Axirət günü Allah-Təala müəyyən edəcək. Bu baxımdan orta yol ən düzgün yoldur. Yəni yalnız Quranın hökmünə əməl etmək, Allahın əmrlərini icra etmək və Quranın göstərdiyi yolu getmək lazımdır. Mənim başa düşdüyüm budur. Düzdür, mən də şiəyəm, şiə ailəsində doğulmuşam və şiə mühitində yaşayıram. Bütün təriqətlərdə dini əlavələr var. Bunlar əslinə baxsan Allahın tək bir doğru yolundan fərqli yolların yaranmasına gətirib çıxarır ki, Allah-Təala da öz kitabında bunu yanlış bir yol hesab edir".

**Deputat Fazil Mustafa da qanvermə aksiyasında iştirak etməyəcəyini dedi:** "Mənim qanvermə aksiyasına münasibətim normaldır. Ən azından



insanların cahilcəsinə başını yarmağı, qan tökməyi əvəzinə belə bir kampaniyanın xüsusən də Azərbaycanda şeyx tərəfindən həyata keçirilməsi müsbətdir. Əgər insanları cəhalətdən yayındıra bilmirsənsə, belə vasitələrlə insanlara faydalı olan bir nəticə ortaya qoymaq daha yerindədir".

**Deputat Zahid Oruc bunun fərdi bir seçim olduğunu bildirdi:** "Qanvermə aksiyası insanların Aşuranın mahiyyətini təhrif etmələrinin və küçə-meydanlarda sadəcə bədənlərinə verə bildikləri ziyanların qarşısını almaq üçün keçirilir. İnsanları daha düzgün məcraya yönəltmək və ən yaxın çevrəsi üçün faydalı olmağa səsləmək zərurəti meydana çıxıb. Əslində ilin bütün dövrlərində insanlar bir-birilərinə qanı, canı və mənəviyyatı ilə kömək etməlidir. Mən qanvermə aksiyasına gedənləri alqışlayıram. Amma siyasətçilərin hamısının bu aksiyada iştirakını gözləməyi məqsədəuyğun saymıram. Mənim aləmimdə ən önəmli məsələ sadəcə qan verməklə nümunə göstərmək deyil, İslam aləmindəki ümumi dəyərlərin, müqəddəs ayə və surələrin vətəndaşa çatdırılmasıdır. Aşura günü qanını verib, sabah başqasının qanını tökən insan əslində bəşəriyyətə xidmət etmir".

Maraqlıdır, hansı xəstələr qanvermə aksiyasında iştirak edə bilməz?

**Tibb elmləri doktoru, professor Adil Qeybulla bildirdi ki, qanında müxtəlif virus olan şəxslər başqası üçün qan verə bilməz:** "Qanında hepatit virusları, SPİD olan şəxslər qan verə bilməzlər. Qanı az olan, hemoqlobini, təzyiqi aşağı olan şəxslərə də qan vermək məsləhət görülmür".

❑ **Günel MANAFLI**

# Kəlbəcərli girovlara görə beynəlxalq təşkilatlar ittiham edildi

## Deputat Əli Hüseynli beynəlxalq ictimaiyyəti bu haqsızlığa qarşı susmaqda qınadı, Akif Nağı girovların pulla geri qaytarılmasından danışdı

**Kəlbəcərdə tutulan girovlarımız Dilqəm Əsgərov və Şahbaz Quliyevin "məhkəməsi" başlayıb. "DQR"də "mühakimə olunan" girovlarımızın azadlığı üçün müxtəlif təkliflər səslənir. Bu təşəbbüslərdən biri girovlar üçün vəkil göndərilməsi, digər bir təklif isə onların pulla geri qaytarılmasıdır.**

"Kəlbəcərdə girov götürülən vətəndaşlarımızın məhkəməsinə vəkil göndərmək təklifinə vitse - spiker Bahar Muradovanın münasibəti ilə razıyam və onun fikrini dəstəkləyirəm. Yəni tanınmayan bir respublikaya getmək barədə təklifi absurd hesab edirəm.

Amma eyni zamanda biz digər resurslarla, yəni beynəlxalq təşkilatların imkanından istifadə edib, onlara təsir etməliyik ki, vətəndaşlarımızın hüquqları müdafiə olunsun".

Bunu APA-ya açıqlamasında **Milli Məclisin Hüquq siyasəti və dövlət quruculuğu komitəsinin sədr Əli Hüseynli** deyib. Onun sözlərinə görə, girov düşən soydaşlarımızın hüquqlarının beynəlxalq ictimaiyyət vasitəsilə qabardılmasında iki mühüm məsələ öz həllini tapır:

"Bir məsələni beynəlxalq ictimaiyyət üçün qabardırıq ki, necə ola bilər, beynəlxalq qurumlar, insan hüquqlarını müdafiə təşkilatları Azərbaycanda erməni xüsusi xidmət orqanlarının əməkdaşlarının müdafiəsi ilə məşğul olurlar?

Ancaq azərbaycanlıların öz torpağımız olan Kəlbəcərdə girov götürülməsinə heç bir reaksiya vermirlər. İki azərbaycanlı öz ərazilərində qanunsuz tutulub.

Onlar Azərbaycan ərazisində həbs olunublar. Ancaq beynəlxalq ictimaiyyət hələ də susur. ATƏT-in Minsk Qrupu və digər beynəlxalq təşkilatların diqqəti bu məsələyə yönəldilməlidir. Biz buna nail olmalıyıq. İkinci məsələ isə ondan ibarətdir ki, bəlkə onların vasitəsilə hansısa vəkil orda vətəndaşlarımızın hüquqlarını qoruya bilər".



**Ə.Hüseynli qeyd edib ki, "Dağlıq Qarabağ Respublikası" tanınmamış rejimdir, bu rejimin məhkəməsi ola bilməz:** "Necə ola bilər ki, Azərbaycanın millət vəkili orada keçirilən məhkəmə prosesində iştirak etsin? Axı məhkəmə qərarı dövlətin adından verilir.

Belə çıxır ki, səslənən ideya absurd və populist ideyadır. Burda bizi ən çox narahat edən məsələ odur ki, beynəlxalq ictimaiyyət bunu görmür, narahat olmur. Bu, çox ədalətsiz bir yanaşmadır. İnsanlar qanunsuz həbs olunublar, onlara məhkəmə qurulub, ancaq beynəlxalq ictimaiyyət tərəfindən heç bir reaksiya verilmir".

**Pul təklifinə gəlincə, Qarabağ Azadlıq Təşkilatının (QAT) sədri Akif Nağı bunu istisna etmir. QAT sədrinin sözlərinə görə, Dağlıq Qarabağın pulla qaytarılması təklifi onun özündən gəlib:** "Girovlarımızın pulla qaytarılması fərqli fikir söyləmək istəyindən irəli gəlir.

Hətta bu məsələ pulla həll edilsə belə, hakimiyyətin ən yuxarı səviyyəsində müzakirə olunan işdir. Üstəlik, girovlarımız pulla qaytarılsa belə əsla bunu dilə gətirməzlər. Hesab edirəm ki, bu işin həllində ilk növbədə beynəlxalq təşkilatların müdaxiləsinə nail olmaq lazımdır".

**A.Nağının fikrincə, aksiyalar keçirməklə beynəlxalq təşkilatların müdaxiləsinə nail olmaq mümkündür:** "Amma pul-para versiyası inandırıcı deyil. Əslində ermənilərin girovlarımızı həmişəlik saxlamaq fikri yoxdur. Onlar mütləq qaytarılacaqlar.

Sadəcə, erməni tərəfi yaranmış fürsətdən sui-istifadə edir. Bununla qondarma respublikanı gündəmə gətirirlər, təbliğ etməyə çalışırlar, müəyyən üstünlük əldə etmək istəyirlər. Eyni zamanda azərbaycanlılardan vəhşi obrazı yaratmaq arzusundadırlar. Mübariz İbrahimov işində belə bir obraz yaratmaq istədilər, alınmadı. Eyni proses Dilqəm və Şahbazın məsələsində gedir. Üstəlik, Dilqəm Rusiya vətəndaşıdır və bu məsələnin həlli həm də Moskvadan asılıdır".

**Humanitar Tədqiqatlar Cəmiyyətinin rəhbəri Əvəz Həsənov hesab edir ki, "məhkəmə prosesi"ni gözləməliyik:** "Çünki proses yekunlaşmalıdır. Separatçılar onları cəzalandıracaqlar.

Hökm oxunandan sonra girovlarımızın orda qalması çox çəkməyəcək. ATƏT-in Minsk Qrupu, Qırmızı Xaç Komitəsi və Azərbaycan tərəfi təzyiqlər etsə, onlar "cəzalarını" Bakıda çəkə bilər. Üstəlik, Dilqəm Rusiya vətəndaşıdır və orada həbsdə saxlana bilər. Ona görə də Azərbaycan müxtəlif danışıqlara gedə bilər.

Vacib deyil ki, Xarici İşlər Nazirliyi separatçı rejimin məhkəməsinə və yaxud nazirliyinə müraciət etsin. Sadəcə, onların geri qaytarılması üçün müəyyən şərtlər götürülə bilər. Azərbaycan da əsir və girovlarla bağlı şərtlərə əməl edə bilər".

**Ə.Həsənov əsir və girovlarla bağlı siyasi şərtlərdən söhbət getmədiyini bildirir:** "Bu işlərin intensivləşdirilməsi, dövlət komissiyalarının görüşləri ola bilər, Ermənistana iqtisadi layihələrə qoşulmaqla bağlı vədlər verilə bilər. Hər halda, ölkə üçün hüquqi müstəvidə mübarizə çətin olsa da, vasitəçilərdən istifadə edə bilərik.

Amma girovların pulla qaytarılması ağlıma gəlmir. Vaxtilə hərbçilərdən ibarət vasitəçilər vardı. Döyüş vaxtı pulla, yaxud yanacaq vəd etməklə əsirləri alırdılar. Amma nəzərə alaq ki, Dilqəm və Şahbaz sadə girovlar deyil.

Onları məhkəmə yolu ilə cinayətə cəlb ediblərsə, erməni öldürmək ittihamı irəli sürülübsə, deməli, adi girovlar olmayacaqlar. Eyni zamanda girovların əvvəlki qaytarılma mexanizmi də ağlabatan deyil. Azərbaycan hökuməti danışıqlara getməlidir və Ermənistanı inandırmalıdır ki, onlar buraya ekstradisiyası olandan sonra cəzasını çəkəcək".

**Ekspert Azərbaycandan vəkil göndərməyi mümkün saymır:** "Əli Hüseynli bilir ki, vəkil göndərmək absurddur. Amma beynəlxalq mandatı olan vəkil göndərilə bilər".

❑ **E.SALAMOĞLU**

YENİ MÜSAVAT
N 271 (5980) 4 noyabr 2014

Azərbaycan Respublikasının Prezidenti yanında
Kütləvi İnformasiya Vasitələrinin İnkişafına
Dövlət Dəstəyi Fondu
KİVDF
www.kivdf.gov.az
Ermənistan-Azərbaycan,
Dağlıq Qarabağ münaqişəsi haqqında
həqiqətlərin dünya ictimaiyyətinə çatdırılması,
Azərbaycanın ədalətli mövqeyinin müdafiə edilməsi



# Minsk Qrupundan "Minsk protokolu"nadək

## Rusiyanın iştirakçı olduğu vasitəçilik formatlarından heç biri münaqişələrin həllinə gətirməyib, Moskva nizamlama şanslarını hər dəfə sıfırlayıb və sıfırlamaqda davam edir; Donbasdakı saxta seçkilər Qarabağ probleminin də həllini daha qəliz duruma salacaq, çünki...

**Beynəlxalq birliyin ciddi təpkilərinə rəğmən, Ukraynanın cənub-şərqində, rusiyayönlü separatçıların nəzarətindəki bölgələrdə Kreml qondarma prezident və parlament seçkilərini keçirməyə müvəffəq oldu. Əksər müstəqil analitiklər əmindir ki, 2 noyabr "seçkiləri" Kremlin planının yalnız birinci hissəsidir. İkinci mərhələdə Rusiyanın bu "seçkilərin" nəticələrini tanıması gəlir. "Seçkilər" bitər-btməz bəlli oldu ki, Kreml "nəticələri" artıq tanıyıb.**

Bu da öz növbəsində o anlama gəlir ki, Putin Qərblə münasibətləri növbəti dəfə gərginləşdirmək yolunu tutub. Çünki Moskva bununla Ukrayna böhranına dair üçtərəfli "Minsk anlaşması"nı ("Minsk protokolu" da deyirlər) aşkar şəkildə pozub və Qərb bundan sonra nəinki Rusiyaya qarşı tətbiq etdiyi sanksiyaları yumşaltmayacaq, üstəlik, Kremlə qarşı yeni sanksiyalar müzakirəyə çıxarılacaq.

Rusiya isə deyəsən, bununla da kifayətlənmək niyyətində deyil. Ekspertlər hesab edir ki, bir müddət sonra o, guya "separatçı parlamentin istəyi və tələbi" ilə Donetsk və Luqansk vilayətlərinin Rusiyaya birləşdirilməsi mövzusunu gündəmə gətirə bilər. Yəni eynən Krımdakı kimi.

****

Beləliklə, Ukrayna geosiyasi məkanında Rusiya Qərblə yeni konfrontasiya kursuna rəvac verib. Bu konfrontasiya şübhə yox ki, özünü Güney Qafqazdakı etnik-ərazi münaqişələrində də göstərəcək. Məsələ ondadır ki, əgər Rusiya Ukraynanın başqa bir parçasını də oxşar ssenari ilə özünə ilhaq eləsə və ABŞ-la Avropa buna mane ola bilməsə, demək, Putinin iştahı bir az da böyüyəcək və istisna deyil ki, növbəti mərhələlərdə Cənubi Qafqazdakı separatçı qurumları da Rusiyaya birləşdirmək niyyətinə düşsün.

Ən azından Dağlıq Qarabağ məsələsinin sülh yolu ilə nizamlanmasında Minsk Qrupu çərçivəsində, həmsədr dövlətlər səviyyəsində konsensusun əldə edilməsi daha da qəlizləşmiş olacaq. Eyni zamanda Putinin Avrasiya layihələri ilə bağlı Bakıya təzyiqlərinin kəskinləşməsinin şahidi ola bilərik.

Və əksinə, əgər Ukrayna timsalında ABŞ və Avropa ilə Rusiya atasında bu ölkədəki münaqişələrin həlli üzrə kardinal anlaşma baş tutsaydı, bu, postsovet məkanındakı digər konfliktlərin, o sırada Qarabağ məsələsinin həllinə də pozitiv təsir göstərə, bir növ vahid resept rolunu oynayardı. Axı, Ukraynada da, Cənubi Qafqazda da bu kimi problemlərin yoluna qoyulmasında əsas vasitəçi güclər eynidir və onların hamısının motivi oxşardır.

****

Əfsus ki, Rusiyanın iştirakçı olduğu vasitəçilik institutlarından və formatlarından heç biri münaqişələrin həllinə gətirməyib - nə Dağlıq Qarabağ və Abxaziya-Cənubi Osetiya münaqişələrində, nə də Dnestryanı bölgə və Donbas böhranında. Ukraynadakı separatçı bölgədə keçirilən saxta seçkilər və onun Rusiya tərəfindən təşviq edilməsi isə Kremlin altında imzasının durduğu üçtərəfli Ukrayna-AB-Rusiya protokolunun *("Minsk anlaşması"nın)* birtərəfli qaydada və kobud pozulması idi.

Qarabağ ixtilafına gəlincə, bu münaqişənin yaranmasından az qala 25 ili keçib, amma Kreml ötən müddətdə nəinki problemin həllinə yardımçı olmayıb, tərsinə, azacıq irəliləyiş şansı yaranan kimi, onu sıfırlamaq üçün əlindən gələni əsirgəməyib. 1999-cu ilin oktyabrında, Qarabağ anlaşması ərəfəsində Ermənistan parlamentinin gülləbaran edilməsini yada salmaq kifayətdir. Bir az uzaq tarixdə Tehranda İranın vasitəçiliyi ilə Azərbaycan-Ermənistan danışıqları aparılarkən Şuşanın işğalını da xatırlamaq olar...




Ən isti nümunə kimi isə prezidentlərin Paris görüşü ərəfəsində Kremlin rüsxəti ilə İrəvanda Sərkisyan əleyhinə körüklənən etiraz mitinqlərini göstərmək olar. Bu aksiyaların hər həftə keçiriləcəyi bildirilsə də, Paris sammiti nəticəsiz bitəndən sonra nədənsə İrəvanda sakitlik hökm sürür.

****

Qarabağ ixtilafının həllini qəlizləşdirən başqa bir ciddi əngəl uydurma "soyqırımın" yaxınlaşan bədnam 100 illiyidir. Şübhə yox ki, erməni tərəfi gələn il məsələdə daha barışmaz və daha aqressiv mövqe sərgiləyəcək. Minimum hədəf kimi isə saxta "genosid" mövzusunu gündəmə daşımaqla heç olmasa, Qarabağ məsələsində Qərbin açıq ermənipərəst mövqe tutmasına çalışacaq.

Proses artıq başlayıb. Daşnaksütyun Partiyası qondarma erməni soyqırımının 100 illiyi ilə bağlı Türkiyəyə qarşı torpaq tələbi ilə çıxış edib. ABŞ-ın Montebello şəhərində təşkil olunan yığıncaqda partiya nümayəndələri Van, Bitlis, Ərzrum, Trabzon, Qars və Ərdəhanın Ermənistana verilməsini Türkiyədən tələb ediblər.

Bunlar yəqin ki, hələ jurnaldır təbii ki. Ancaq ermənilərin öz absurd iddialarını artırması Rusiyanın vasitəçi dövlət olaraq münaqişəyə yanaşmasında daha qeyri-konstruktiv mövqe tutması ilə müqayisədə heç nədir. Çünki Qarabağ məsələsinin həllində Ermənistan ən axırıncı söz sahibidir. Eyni zamanda təəssüflər olsun ki, o, vasitəçi güclərin, ən əvvəl də Rusiyanın əlində Azərbaycana mühüm təzyiq vasitəsidir, bütövlükdə önəmli bir regionu öz nəzarətində saxlamaq üçün əvəzsiz rıçaqdır.

Rusiya belə görünür, bu rıçaqı hələ uzun müddət əldən buraxmağa hazırlaşmır və Qərbin təzyiqləri və sanksiyaları gücləndikcə ondan daha güclü yapışacaq. Ancaq paradoks da ondadır ki, ABŞ və Avropa işğalçı ölkənin Rusiyanın əlində maşa olmasını istəmir və bu amil bədnam yubiley ilində erməni tərəfinin planlarını alt-üst edə bilər. Hər halda, saxta soyqırım məsələsinin tanınması müstəsna olaraq Qərbdən asılıdır, Rusiyadan yox.

# "Tezliklə prezidentlərin yeni görüşünə ehtiyac yarana bilər"

**"Prezidentlər hər dəfə görüşmək imkanı əldə etdikləri zaman öz mövqelərinə aydınlıq gətirə və Parisdə olduğu kimi, əsas məsələlər üzrə fikir ayrılıqlarını aradan qaldıra bilərlər". Bunu report.az saytına ATƏT-in Minsk Qrupunun amerikalı həmsədri Ceyms Uorlik Azərbaycan və Ermənistan prezidentlərinin oktyabr ayının 27-də Parisdə keçirilən görüşünü şərh edərkən bildirib.**

"Mən şadam ki, hər iki prezident münaqişəni sülh yolu ilə həll etmək istəyir. Onlar açıq şəkildə bildiriblər ki, sülhün əldə olunmasının vaxtı çatıb, azərbaycanlılar və ermənilər arasında düşmənçilik əməkdaşlıqla əvəz olunmalıdır" - deyə, həmsədr qeyd edib.

O vurğulayıb ki, prezidentlərin görüşü təmas xətti və Azərbaycan-Ermənistan sərhədində vəziyyətin sabitləşməsinə səbəb olur. "Fransa prezidenti Fransua Olland böyük sülh müqaviləsinin tərtib edilməsinə başlamağı təklif edib. Mən ümidvaram ki, tərəflər bu addıma ciddi yanaşacaqlar. O, həmçinin sülhün əldə olunması üçün zəmin yaradacaq qarşılıqlı etimadın (inamın) gücləndirilməsi ilə bağlı tədbir görməyi təklif edib", - deyə Uorlik qeyd edib.

Amerikalı həmsədr habelə münaqişə tərəflərini etimadın gücləndirilməsini təmin edəcək tədbirləri görməyə çağırıb. O, prezidentlərin Beynəlxalq Qırmızı Xaç Komitəsinin dəstəyi ilə münaqişə nəticəsində itkin düşən şəxslər haqqında məlumat mübadiləsi haqqında razılıqlarını da alqışlayıb.

Paris görüşündən və tərəflər arasında qarşılıqlı etimadın zəruriliyindən Ermənistanın müdafiə naziri Seyran Ohanyan da danışıb. Ohanyan bildirib ki, girov və əsirlərin dəyişdirilməsinə ən böyük əngəl Azərbaycanla Ermənistan atasında birbaşa təmasın olmamasıdır. Bundan az öncə isə o, qarşılıqlı itiklərin azaldılması üçün təmas xəttindən snayperlərin geri çəkilməsini təklif eləmişdi.

Azərbaycanın müdafiə naziri general-polkovnik Zakir Həsənov isə Ohanyanın tərəflər arasında inam atmosferinin yaradılması və başqa bu kimi təkliflərinə belə münasibət bildirib: "Ermənistan Silahlı Qüvvələri tərəfindən zəbt edilmiş torpaqlarımızdan işğalçılar tamamilə və qeyd-şərtsiz çıxarıldıqdan sonra bu. mümkün ola bilər".

Bu arada isə Azərbaycanın xarici işlər naziri Elmar Məmmədyarov Bakıda Macarıstanın xarici işlər və ticarət naziri Peter Siyarto ilə görüşdən sonra keçirilən mətbuat konfransında maraqlı fikir söyləyib. O, dekabrın əvvəlində Azərbaycan və Ermənistan xarici işlər nazirlərinin və ATƏT-in Minsk Qrupu həmsədrlərinin Bazeldə görüşünün baş tuta biləcəyini söyləyib.

**APA-nın məlumatına görə, nazir Paris görüşündə çox geniş müzakirələr aparıldığını söyləyib:** "Müxtəlif səviyyədə görüşlər keçirilib. Prezident Ollandla da görüşlər olub. Bu, bir addımdır, prosesdir. Olland açıqlamasında artıq sülh sazişi üzərində işləməyin vaxtının çatdığını vurğulayıb. Bildiyiniz kimi, Madrid prinsipləri var. Doğrudur, bəzi məqamlar hələ razılaşdırılmayıb. Bu münaqişə bir günün içində həll olunan deyil. Hansı məqamlar qalıbsa, onların müzakirəsini davam etdirməliyik. Nyu-York görüşü bir təklifdir. Çox güman ki, dekabrın əvvəlində Bazeldə ATƏT-in XİN başçılarının görüşü zamanı Qarabağ münaqişəsi ilə bağlı da görüş olsun. Danışacağıq, müzakirələr aparacağıq. Ola bilər ki, yaxın müddətdə yenə də prezidentlərin görüşünə ehtiyac yaransın".

**E.Məmmədyarov qeyd edib ki, Azərbaycan sülh sazişi üzərində işi bitirməyi vacib sayır:** "Biz deyirik ki, əlaqələr yaransın, icmalar arasında da münasibətlər qurulsun. Amma ən önəmli addım qoşunların Azərbaycandan çıxmasıdır. Qoşunlar çıxarılsa, bir çox maneələr aradan qalxar, sülh üçün imkan yaranar".



**Elmar Məmmədyarov:** "Bu münaqişə bir günün içində həll olunan deyil..."



**Ceyms Uorlik:** "Ümid edirəm ki, tərəflər böyük sülh müqaviləsinin tərtib edilməsinə ciddi yanaşacaqlar..."

Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondunun maliyyəsi əsasında. Səhifəni hazırladı: Siyasət şöbəsi

# Apardı sellər Bakını...

## Bir neçə saat davam edən yağış paytaxtı iflic etdi; tıxaclar yarandı, yollar keçilməz oldu, evləri su basdı



















**Noyabrın 2-də axşam saatlarından başlayan və noyabrın 3-də də davam edən güclü yağış Bakını selə qərq etdi. Kanalizasiya sistemlərinin işləməməsi səbəbindən yağış suları küçələrdə yığılıb qaldı, avtomobillərin hərəkət etdiyi magistral yollarda "çay axmağa" başladı, nəqliyyatın hərəkəti iflic oldu. Bakıda gün ərzində uzun tıxaclar yarandı. Həmçinin Bakının müxtəlif ərazilərində elektrik enerjisinin verilməsində problemlər yarandı.**

Ötən gündən başlayaraq havanın kəskin dəyişməsi yaşayış evlərində fəsadlara səbəb olub. Fövqəladə Hallar Nazirliyinin mətbuat xidmətindən ANS PRESS-ə verilən məlumata görə, "112" qaynar xəttinə daxil olmuş məlumata əsasən, Bakı şəhəri ərazisində intensiv yağışın yağması ilə əlaqədar fərdi yaşayış evlərinə su dolub.

Hadisə ilə əlaqədar olaraq, Binəqədi rayonu ərazisində evdən çıxması çətinləşmiş 2 nəfərə müvafiq köməklik göstərilib. Əməliyyat saat 07:56-da başa çatıb.

Yağış Nərimanov rayonu ərazisində də problem yaradıb. Evdən çıxması çətinləşmiş 5 nəfərə FHN müvafiq köməklik göstərib. Əməliyyat saat 04:55-də başa çatıb.

Yağış suları Yasamal rayonu ərazisində - Bəşir Səfəroğlu küçəsi, 152 ünvanında (Sovetski) fərdi yaşayış evinin çökməsinə səbəb olub. Yamacda yerləşən evin uçması ilə bağlı FHN-in Xüsusi Riskli Xilasetmə Xidmətinin əməkdaşları hadisə yerinə cəlb olunub, əraziyə xüsusi təlim keçmiş itlər gətirilib.

Məlum olub ki, uçan evdə yaşayış olmayıb. Hadisə nəticəsində ölən və ya xəsarət alan da qeydə alınmayıb. Sosial şəbəkələrdə bir-birinin ardınca yağışın Bakıda yaratdığı mənzərənin foto və videoları paylaşılıb.

Bakı sakinləri ilə apardığımız söhbətdən məlum oldu ki, yağışın törətdiyi fəsadlardan hər kəs narazıdır. Sakinlər deyir ki, payızda bu vəziyyətə düşən yollar gör, qışda necə olacaq.

**Taksi sürücüsü Akif Salmanov söylədi ki, hər il yollara milyonlarla manat pul xərclənir, lakin yağış sularının haraya axacağı düşünülmür:** "Elə bir sistem yaratmaq lazımdır ki, yağıntı suları qısa müddətdə axıb getsin və yollar təmizlənsin. Bir saat güclü yağış yağan kimi Bakı gölməçəyə dönür. Bu maşın bizim çörək ağacımızdır. Hər dəfə suya girəndə bizə nə qədər ziyan dəyir. Ancaq bunu heç düşünən yoxdur".

**İki məktəbli övladı ilə yolu keçməkdə çətinlik çəkən Sevda Rəhimova da yağışın meydana gətirdiyi vəziyyətdən narazıdır:** "Baxın, uşaqların ikisi də suyun içindədir, ayaqları su olub və məktəbdə neçə saat bu vəziyyətdə oturmalı olublar. Yolda su o qədər dərin idi ki, uşaqlar dizə qədər suya batdılar. Hər dəfə yağış yağanda bu vəziyyətlə üzləşirik. Çünki kanalizasiya quyuları işləmir. Hətta bəzilərinin üstündən asfalt çəkiblər".

Dünən səhər saatlarında paytaxt yollarında apardığımız müşahidə zamanı daha bir acınacaqlı mənzərənin şahidi olduq: İnsanlar bir-birinə kömək edərək, əl-ələ tutub yoldan axan sel sularının üzərindən hoppanır, selin gur axan yerlərinə daş düzərək onların üzəri ilə keçməyə çalışırlar. Daha çətin vəziyyətlə üzləşənlər isə uşaqlar və qadınlardır. Onlar yol boyunca axan seli təqib edərək daha dayaz olan hissəsindən keçməyə çalışırlar. Avtomobillərin hərəkəti isə yolu keçməyə çalışan piyadaları çirkab sulara "qonaq edir". Piyadalar deyir ki, hər dəfə yağış yağanda bu cür "sürücü mədəniyyəti"nin şahidi oluruq: "Yollarda su var, sürücülər də qəsdən elə sürürlər ki, adamın bütün üst-başı palçıq içində qalır".

**"Yeni Müsavat"a açıqlamasında problemi şərh edən Sosial-Strateji Tədqiqatlar və Analitik Araşdırmalar Mərkəzinin rəhbəri İlqar Hüseynli bildirdi ki, bu problemin səbəbi şəhərin kanalizasiya sisteminin həddindən artıq yüklənməsi və bir çox yerlərdə sıradan çıxmasıdır:** "Bakı şəhəri bəlli bir infrastruktur və bəlli bir insan sayı üçün nəzərdə tutulan şəhər olub. Həmin dövrdə Bakının kanalizasiya sistemi qurularkən 1,5-2 milyon insanın yaşayışı üçün nəzərdə tutulmuşdu. Bakı şəhərinin yenidən qurulması, son 10 ildə bölgələrdən çoxlu sayda insanın paytaxta axın etməsi, hündür mərtəbəli yaşayış binalarının çoxalması, su-kanalizasiya sistemlərinin isə yenidənqurma işlərindən kənarda qalması və yenilənməməsi yağış yağarkən suyun yollarda yığılıb qalmasının əsas səbəbidir. İkinci bir səbəb isə odur ki, Bakıda yol infrastrukturunun abadlaşdırılması zamanı xeyli sayda kanalizasiya quyularının üzərindən asfalt çəkildi, iriölçülü kanalizasiya qapaqları estetik görünüşü pozmamaq üçün daha kiçikləri ilə əvəz olundu. Düzdür, yol təmiri ilə məşğul olan qurumlar öz işlərini görürlər, lakin kanalizasiya sistemlərinə fikir vermirlər. Hər dəfə yol təmir ediləndə xeyli sayda kanalizasiya "lük"ları asfalt örtüyünün altında qalır. Nəticə isə yollarda yağış sularının yığılıb qalmasına gətirib çıxarır. Əslində şəhərin coğrafi relyefi elədir ki, yol salınarkən qurunt sularının axıdılması nəzərə alınmalıdır. Əvvəllər avtomobil yollarının, səkilərin kənarlarında xüsusi novçalar olurdu ki, həmin novçalar məhz yağış sularını istiqamətləndirirdi kanalizasiya quyularına. Beynəlxalq təcrübədə də, xarici ölkələrdə də şəhərsalma zamanı bu faktor xüsusi nəzərə alınır. Avtomobil yollarının kənarlarında kanalizasiya quyuları olur və dəmir barmaqlıqlı lövhələrlə örtülür. Bu, yağış sularının birbaşa kanalizasiyaya axıdılmasını təmin edir. Bu elə bir məsələdir ki, yol infrastrukturu qurularkən nəzərə alınmalıdır. Çox təəssüflər olsun ki, təcrübəsizlikdən və ya laqeydlikdən şəhərsalma zamanı heç bir planlaşma olmadan təcrübəsiz şirkətlər bu işi gördülər və Bakı şəhərini bu hala saldılar".

**Ekspert onu da qeyd etdi ki, yollarda yığılan su təkcə nəqliyyatın hərəkətinə mane olmaqla qalmır, həmçinin avtomobillərə çox ciddi şəkildə ziyan vurur:** "Bəzən yollarda su o qədər yüksək olur ki, avtomobillərin mühərrikinə qədər qalxır. Həmin suların avtomobillərə vurduğu ziyan odur ki, mühərrik islanır, sönür və nəqliyyatın hərəkəti zəifləyir, tıxaclara səbəb olur. Bəzən avtomobilin təkəri qapaqları açıq olan kanalizasiya quyularına düşür və maşın yolda qalır. Bu həmçinin ekologiyaya da ziyan vurur. Su çəkiləndən sonra yollarda qalmış toz örtüyü şəhərin çirklənməsinə səbəb olur".

❑ **Nərgiz LİFTİYEVA**
**Fotolar müəllifindir**

# İŞİD 11 nəfərin başını kəsdi

## "Onlar vəd etdikləri əfvə əməl etmədilər"

**"Agence France-Presse"in xəbərində deyilir ki, İŞİD üzvləri Suriya dünyəvi müxalifətinə məxsus 8 döyüşçünün başını kəsib və onların bədənlərini xaç formalı ağacdan asıb. Bu barədə Suriya İnsan Hüquqları Mərkəzinin nümayəndələri agentliyə məlumat verib. Onlar qeyd ediblər ki, başı kəsilmiş şəxslər öldürülmədən öncə könüllü olaraq İŞİD-ə təslim olublar. Çünki İŞİD təslim olacaq hər bir kəsi əfv edəcəyini bəyan etmişdi. Ancaq onlar sözlərini tutmadılar.**

İŞİD baş kəsmə mərasimini Deir Ezzor əyalətindəki Albu Kamal deyilən yerdə həyata keçirib.

Maraqlıdır ki, başı kəsilmiş şəxslər həm İŞİD-ə, həm də Suriya prezidenti Bəşər Əsədə qarşı vuruşurdular.

Agentlik bildirir ki, İŞİD Deir Ezzor-da daha üç nəfərin başını kəsib. Onların da bədənini xaç formalı ağacdan asıblar. Agentlik bildirir ki, bu üç kişidən ikisi Bəşər Əsədə işləməkdə, üçüncü isə İŞİD-ə qarşı döyüşməkdə suçlu bilinib.

❑ **Elbəyi Həsənli , musavat.com**

YENİ MÜSAVAT
N 271 (5980) 4 noyabr 2014

# Ölkəmizdən "CİHAD" yolçuluğunun yeni marşrutu

**Qərbin İŞİD-ə qarşı taktika dəyişdirdiyi barədə məlumatlar ciddiləşməkdədir. Bu yeni taktika gedənlərə mane olunmaması, qayıtmağı qeyri - mümkün etmək, imkan tapıb qayıdanları isə həbs etmək və s. vasitələrlə cəmiyyətdən təcrid edilməsindən ibarətdir. Artıq getmək istəyən "cihadçılara" Avropa ölkələrində də xüsusi baryer qoyulmur. Məqsəd cəmiyyəti "özünü təmizləmək"dən məhrum etməmək və "sivilizasiyalı cəmiyyəti" son bir neçə on ildə İslam radikalçılığı şəklində toplanmış gərginliyindən xilas etməkdən ibarətdir.**



# Azərbaycan İŞİD-çiləri haqda şok məlumatlar - eksklüziv

## İŞİD üçün Türkiyə yolu qapandı, Pakistan yolu açıldı; Azərbaycan hakimiyyəti "cihad"a gedənləri saxlamamaq barədə qərar qəbul edib; "şəhid" olmağa gedənlər avtomatlarını da öz pullarına alırlar; dünyanın 1 saylı mövzusu barədə şok bilgilər...

**"Onlara əvvəl dedim ki, gəlin gedək Ağdamda, Kəlbəcərdə şəhid olaq. Cavabları bu oldu ki, həmin torpaqlara dair "Cihad fətfası" yoxdur. Sonra da dedim ki, imanım kamil deyil, mənə zaman lazımdır ki, oxuyum və ibadət edim. Açığı, gedib oralarda ölmək istəmirəm. Lakin həm də burdakılardan qorxuram"**

Ümumiyyətlə, "İŞİD" eksperimentinin xüsusilə Avropada toplanmış həmin gərginlik daşıyıcılarının öz ölkələrində hərəkətə keçirəcək "fitvaları" gözləmədən "ölüm düşərgələrinə" göndərilməsi məqsədilə düşünüldüyü irəli sürülür. Bir istisna müşahidə olunur. ABŞ bu məsələdə vətəndaşlarını hələ də "qoruyur". ABŞ xüsusi xidmət strukturları "cihad" çağırışlarına gedən amerikalıları hətta Türkiyə, Almaniya və başqa ölkələrdə də yaxalayıb, geri qaytarır.

Bizə daxil olan sensasion informasiyalara görə, Azərbaycan xüsusi xidmət orqanları da onlara ekspertlik edən xarici ekspertlərin tövsiyəsi ilə ölkədəki vəhhabi və Suriyada savaşa getmək istəyənlərlə bağlı haqqında danışılan həmin yeni taktikanı qəbul etmək üzərində siyasi rəhbərlik qarşısında məsələ qaldırıb. Bu barədə "Yeni Müsavat"a adının açıqlanmaması şərti ilə mötəbər mənbədən məlumat daxil olub. Onun iddiasına görə, əgər əvvəllər radikal vəhhabilərə qoşulan, "cihad" çağırışına gedən vətəndaşlarımızın ölkədən çıxmasına, Türkiyə üzərindən savaş meydanına girməsinə maneçilik törədilirdisə, indi durum dəyişib. Qərar verilib ki, ölkədən çıxıb gedənlərə heç bir maneçilik törədilməsin. Hətta xüsusi xidmət orqanlarında və polisdə əməliyyat məlumatları olur, dəqiq bilinir ki, kimlərsə getmək hazırlıqları içindədirlər - bu zaman da müdaxilə etmirlər.

Xatırladırıq ki, hətta bir qədər əvvəl bu barədə məlumat getmişdi ki, xüsusi xidmət orqanları Suriyaya getməyə hazırlaşan radikalların ev ünvanlarına qədər hər şey məlumdur. Bildirilirdi ki, getmək istəyənlərin hamısı nəzarət altındadır. Lakin cəmiyyətdə gözlənilən iri proflaktik əməliyyatlar həyata keçirilmədi. Aydındır ki, sıravi "cihad" döyüşçüləri məlumdursa onları cəlb edən şəbəkə və liderlər də məlum olmalıdır. Belədirsə, nə üçün onlara maneçilik törədilmir. Rəsmi Bakını daha çox narahat edən bu cür gedişləri təşkil edən şəbəkələr və onların maliyyə qaynaqları olması təbiidir. Ötən həftə Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin sədri Mübariz Qurbanlı mətbuata müsahibəsində bir daha bəyan edib ki, radikal dini qrupları maliyyələşdirən mənbələr sıradan çıxarılacaq. Komitə sədri bununla bağlı müvafiq araşdırmaların aparıldığını daha əvvəl də bildirmişdi, indi isə qəti olaraq bu mənbələrin sıradan çıxarılacağına işarə edir. Bu da onu göstərir ki, hakimiyyət terroru maliyyələşdirən mənbələrlə də bağlı ciddi bilgilərə sahibdir. Lakin hələ yayda həyata keçiriləcəyi deyilən əməliyyatlar o dərəcədə ləngidilir ki, hətta onun gündəmdən çıxması ehtimalı daha ağlabatan görünür.

Bizə çatan bilgilərə görə, hazırda hökumətin əsas diqqətində olan məsələ radikal cihadçıların getməsi yox, onların geri qayıtmasıdır, çünki artıq dünya ölkələri terrorçuların geri dönməsi ilə bağlı həyəcan təbili çalırlar. Hazırda dövlətin müvafiq strukturları da daha çox gedənlərin geri dönməsinə qarşı əməliyyat hazırlığı görürlər. Belə ki, geri dönənlər dərhal nəzarətə alınır və həbs olunur. Sentyabrın sonlarında MTN 26 Azərbaycan vətəndaşını həbs etdiyini açıqlamışdı. Bu insanların böyük hissəsi Suriyada döyüşlərə qatılan ölkə vətəndaşları idi.

Əldə etdiyimiz məlumata görə, hazırda "cihad"çıların Azərbaycandan çıxıb Suriya və İraqa getmək marşrutları da dəyişib. Mətbuatdan da məlum olduğu kimi, proses əvvəl Türkiyə üzərindən baş verirdi. Ötən 3 ildə Azərbaycan vətəndaşları Naxçıvan, eləcə də Gürcüstan üzərindən avtobusla Türkiyə ərazisinə keçir, burda isə Suriya ilə sərhədə gedərək burdan rahat şəkildə sərhədi keçərək "cihad" qruplarına qoşulurdu. İddialara görə, Türkiyənin xüsusi xidmət orqanları ölkə ərazisini açıq qapı elan etmişdilər - Bəşər Əsəd rejiminə qarşı dünyanın hər yerindən gələn "cihadçılar"a hər cür şərait yaradılırdı ki, onlar Suriyaya keçib, İŞİD, "əl-Nusra" və digər savaşçı qruplara qoşulsunlar... Sonradan daha bir marşrut Rusiya üzərindən qeydə alındı.

Ancaq hazırda Türkiyə dünyanın açıq ittihamları qarşısındadır. Dünya ölkələri AKP iqtidarını İŞİD-ə və "əl Nusra"ya dəstək verməkdə, onlarla gizli iş birliyi qurmaqda günahlandırır. Bu səbəbdən də artıq Türkiyədən Suriyaya keçid dəmək olar ki, dayandırılıb.

Bugünlərdə Bakıdakı "cihada dəvət olunanlar"dan biri "Yeni Müsavat"a deyib ki, onlara artıq başqa marşrut təklif olunur. İran üzərindən Pakistana gedilir, Bəlucistan əyalətindən keçərək Talibanın Pakistandakı əsas qalası hesab olunan Vəziristan əyalətində toplanılır. "Yeni Müsavat"a danışan mənbə deyib ki, onlara açıq şəkildə şəhid olmağa getdikləri deyilib: **"Mən hələlik bir bəhanə ilə yayınmışam. Onlara əvvəl dedim ki, gəlin gedək Ağdamda, Kəlbəcərdə şəhid olaq. Cavabları bu oldu ki, həmin torpaqlara dair "Cihad fətfası" yoxdur. Sonra da dedim ki, imanım kamil deyil, mənə zaman lazımdır ki, oxuyum və ibadət edim. Açığı, gedib oralarda ölmək istəmirəm. Lakin həm də burdakılardan qorxuram"**, deyir, həmin mənbə.

Qeyd edək ki, Pakistan Talibanı ötən ilin yayında bəyanat yayaraq, Bəşər Əsədə qarşı döyüşən müxalif qüvvələri dəstəklədiyini elan edib. Eyni zamanda Taliban bəyan edib ki, Suriyada düşərgələr yaradıb və bu düşərgələrə yüzlərlə Pakistan Talibanı üzvü göndərilib. Sitat: **"Qardaşlarımız bizə ehtiyac duyduqları üçün yüzlərlə döyüşçümüzü ərəb qardaşlarımızla birlikdə Suriyaya göndərdik".**

Qeyd edək ki, Əfqanıstan və Pakistan Şimali Qafqazdan sonra azərbaycanlı radikal dindarların üz tutduğu ikinci əsas bölgə olub. 90-cı illərin sonu, 2000-ci illərin əvvəllərində radikal islamçılar Azərbaycandan İrana, oradan isə Pakistana keçərək burdakı radikal islamçı qruplara, o cümlədən "əl-Qaidə" və Talibana qoşulurdu. Hətta uzun müddət mətbuatda valideynləri övladlarının Məşhəd ziyarətinə getdiyini iddia edirdilər. Ancaq sonradan məlum oldu ki, əslində onlar diqqəti yayındırmaq və İran üzərindən Pakistana rahat keçmək üçün bu hekayəni uydurublar. Qeyd edək ki, Azərbaycan MTN-i "Meşə Qardaşları" qruplaşmasının bir üzvünü məhz Pakistanda həbs edərək, Azərbaycana gətirib. Bəzi məlumatlara görə, son illərə qədər Pakistanda 300-dən bir qədər çox Azərbaycan vətəndaşı silahlı qruplaşmaların tərkibində olub.

2012-ci ildə Peşəvər bölgəsində "əl-Qaidə" terror şəbəkəsinin nüfuzlu komandirlərindən olan azərbaycanlı, 1981-ci ildə Sumqayıtda anadan olmuş Aslanov Zaur, yenə həmin ildə yanvarda Xəqani İmamverdiyev adlı azərbaycanlı ABŞ pilotsuz təyyarələrinin hücumu zamanı öldürülüb. Maraqlıdır ki, onun atası mətbuata demişdi ki, oğlu dini təhsil almaq adı altında İrana gedib, daha sonra Pakistandan zəng edərək bu ölkədə olduğunu xəbər verib. X.İmamverdiyev 2009-cu ilin sonlarında İrana, oradan isə Pakistana aparılan 8 azərbaycanlı tələbədən biri olub. Pakistanda "Taliban"a qoşulan azərbaycanlı tələbələrin valideynlərinin bildirdiyinə görə, bu ölkədə yüzlərlə azərbaycanlı terrorçu birləşmələrin tərkibində döyüşür. Onların arasında hətta BDU-nun tələbəsi olmuş qızın da olduğu bildirilirdi.

**Sabiq təhlükəsizlik zabiti, "Trend" İnformasiya Agentliyinin direktor müavini Arzu Nağıyev deyir ki, Azərbaycandan "cihadçı"ların İran üzərindən Pakistana, oradan da Əfqanıstana keçməsi faktları daha əvvəl də mövcud olub:** "Bu marşrut həmişə olub. Azərbaycandan olan radikal dini qrupların üzvləri Pakistana və Əfqanıstana getmək üçün İrandan keçib gedirdilər. Azərbaycandan olan çoxlu sayda insanlar hələ də Pakistan və Əfqanıstandadır".

Təhlilin əvvəlindəki məsələ barədə müraciət etdiyimiz, adını çəkilməsini istəməyən təhlükəsizlik eksperti deyir ki, potensial gərginlik daşıyıcılarının ölkədən çıxmalarına mane olmama taktikası xətalı və təhlükəlidir. Buna diqqət yetirmək lazımdır. Onun dediyinə görə, İŞİD-in özünün taktika dəyişdiyi və tezliklə yenidən yeraltına çəkiləcəyi barədə informasiyalar daxil olmaqdadır və bunu təsdiq edən dəlillər də görünür. İŞİD- in strategiyasına görə yeraltına çəkilmə 2016-cı ildə baş verməli idi. Lakin dünya dövlətlərinin müdaxiləsi onların təqvimində dəyişikliklər edilməsini zəruri edib. Hələ 2012-ci ildə elan edilən proqrama görə, İŞİD müəyyən hazırlıqdan sonra, 2018-ci ildə qlobal terror vahiməsi mühiti kimi, artıq hər yerdə hərəkətə keçməli və total terror vasitəsi ilə dünyaya qalib gəlməyi planlaşdırır. Həm də artıq sərhədlərdə, qeydə düşmədən "cihad" yerlərinə qeyri - leqal marşrutlar işə salınmışdır. Deməli qeydə düşmədən də geriqayıdış yolları salınmışdır. Odur ki, heç bir eksperimentlərə uymadan təhlükəni yerində boğmaq lazımdır. Sonra gec ola bilər.

❑ **Kənan RÖVŞƏNOĞLU**

YENİ MÜSAVAT
N 271 (5980) 4 noyabr 2014

# Polad Alemdar qəzaya düşdü... bizimkilər də ona "qoşuldu"

## Azərbaycanlı sənətçilərin ilginc qəza hekayələri

**"Kurtlar Vadisi Pusu" serialında Polat Alemdar obrazını canlandıran Necati Şaşmaz avtomobil qəzasına düşüb. Məşhur aktyor ötən axşam serialın çəkilişi zamanı özünün idarə etdiyi maşınla qəza törədib. Göztəpədəki özəl klinikalardan birinə yerləşdirilən Şaşmazın çənəsində qırıq aşkarlanıb. Təcili əməliyyat olunan aktyorun vəziyyəti yaxşıdır.**



Bu xəbər bizi azərbaycanlı müğənnilərin, aktyorların qəza tarixçəsini yada salmağa sövq etdi.

2012-ci ildə Azərbaycanın tanınmış müğənnisi Natəvan Həbibi qəzaya düşüb. Hadisə Novxanı yolunda baş verib. Lider TV-də yayımlanan "Rəngarəng" verilinin çəkilişinə, xalq artisti Nazpəri Dostəliyevanın bağına gedən zaman baş verən qəzada xəsarət alan olmayıb.

Natəvanın sözlərinə görə, günah qarşı tərəfdə olub və problem yerində həll olunub. Hadisə zamanı həmkarı Elnur Məmmədov da Natəvanla eyni maşında olub.

2014-cü ilin martında müğənni Ruhəngiz Allahverdiyeva da avtomobil qəzasına düşüb. Hadisə baş verən zaman müğənninin yanında dostları da olublar. R.Allahverdiyeva avtomobil sürməyi öyrənmək istəyirmiş.

Hadisə gecə saatlarında Dərnəgül şossesində olub. Dostu Vəfa Vaqifqızının ağ rəngli "KİA Sportage" markalı avtomobilində qəza keçirən müğənninin vəziyyəti sonradan düzəlib.

Azərbaycanlı müğənni Günay İbrahimli ATV telekanalında yayımlanan "Texnopark" verilişində qəzaya uğrayıb və huşunu itirib. Verilişdə Günay verilişin aparıcısı Zaur Əliyevlə kartinq yarışı keçirib. Ancaq yarış zamanı Günayın idarə etdiyi maşın qəzaya uğrayıb və o, huşunu itirib. Onun üçün təcili yardım da çağırılıb və müğənni xəstəxanaya aparılıb.

Müğənni Elnarə Xəlilova da 33 yaşı tamam olanda qəzaya uğrayıb. Doğum gününü şəhər restoranlarının birində təmtəraqlı şəkildə qeyd edən müğənni məkana gələn zaman avtomobil qəzası keçirib. Müğənninin maşını arxadan vurulub.

Müğənni Elton Hüseynəliyev avtomobil qəzası keçirib. Nəsimi rayonu ərazisində baş verən qəzada ifaçı ciddi xəsarət almayıb. Maşını döndərərkən əməliyyatı düzgün yerinə yetirə bilməyən Elton onu səkiyə çırpıb. Nəticədə "BMW" markalı avtomobilin qabaq hissəsi yararsız hala düşüb. Sənətçi özü isə maşını orada qoyaraq, hadisə yerindən uzaqlaşıb.

Bakı Bələdiyyə Teatrının tanınmış aktyoru İlqar Musayev avtomobil qəzasına uğrayan məşhurlardandır. Bu ilin avqustunda onun idarə etdiyi 90-HV-733 dövlət nömrə nişanlı VAZ 2107 markalı avtomobil 90-VN-826 dövlət nömrə nişanlı avtomobillə toqquşub. Nəticədə hər iki avtomobilə ciddi ziyan dəyib. Sürücülərdən heç biri ciddi xəsarət almasa da, aktyor qolunda ağrılar hiss etdiyini bildirib: **"Həyətdən təzəcə çıxıb çəkilişə gedirdim. O biri sürücü elə bil ki, təyyarə sürürdü. Qolumda möhkəm ağrılar vardı".**

❑ **SEVİNC**

**Babasil xəstəliyinin ən müasir metodla MÜALİCƏSİ**

*Almaniyanın məşhur "Karl Etorts" firmasının aparatı ilə Moskva şəhəri proktologiya ETM-də xüsusi hazırlıq keçmiş həkim tərəfindən qansız, ağrısız, yataq rejimi gözləmədən - lateks həlqə qoyulması.*

SƏLİMOV FƏRMAN

Tel: (055) 776-70-34

**Babasil xəstəliyinin ən müasir metodla MÜALİCƏSİ**

*Almaniyanın məşhur "Karl Etorts" firmasının aparatı ilə Moskva şəhəri proktologiya ETM-də xüsusi hazırlıq keçmiş həkim tərəfindən qansız, ağrısız, yataq rejimi gözləmədən - lateks həlqə qoyulması.*

SƏLİMOV FƏRMAN

Tel: (055) 776-70-34

**Kişilər!!!**

Xəstəliklərdən əzab çəkən adamlar üçün! Diqqət! **İsrail təbabəti** tətbiq edilir! **Axırıncı şans!!!**

Əgər Sizə nə **Azərbaycanda,** nə də **xaricdə heç kim kömək edə bilməsə** və Siz aşağıda **göstərilən xəstəliklərdən** həmişəlik qurtarmaq istəyirsinizsə, onda **yaxşı insanlara,** keyfiyyətli, qısa müddətdə və tam müalicəsini **d-r Vaiz Səmədov apara bilər:**

* **Cinsi zəiflik, meyilin və ereksiyanın azalması tam impontensiyədək** (yaşdan və səbəbdən asılı olmayaraq)
* **Cinsi marağın** və **cinsi aktların** azalması
* **Vaxtından tez** toxum **ifrazatı** (səbəbdən asılı olmayaraq)
* **Toy gecəsinin** uğursuzluqları **(kişi tibbi problemlər)**
* **Prostatitlər.** Prostat vəzin **böyüməsi** və ya **kiçilməsi**
* **Prostat adenoması** *(vəzidə düyünlərin əmələ gəlməsi)*
* **Cinsi vəzilərin**-xayaların **böyünməsi** və ya **kiçilməsi**
* **Qasıq-xayalıqda** sızıltı, küt və ya kəskin **ağrılar**
* Əvvəldən **xarici cinsi üzvün** balaca olması
* **Xarici cinsi üzvün** sonradan **birdən kiçilməsi**
* **Cinsi üzvün** düyünlə birdən **əyilməsi** (Peyroni xəstəl.)
* **Oğlan uşaqlarında cinsiyyət üzvlərinin inkişafsızlığı**
* **Uşaqlarda** gecə vaxtı **yerinə sidiyə getməsi** (***enurez***)
* Hormonal və iltihablı **sonsuzluq** (kişilər və qadınlarda da)
* **Qadınlarda uşaqlıq boruların keçməməzliyi**
* Sidik aktlarının gecə ya **gündüz tez-tez olması**
* Sidik aktlarının çətinlikləri və tutulmaları
* Cinsi aktla bağlı **sidikdə** və **spermada qan olması**
* **Zöhrəvi xəstəliklərdən** sonra **qalıqlar və ağırlaşmalar**
* **Saçların** bütün formalatda **tökülməsi** və **sızanaqlar**
* **Gərginlik, yuxusuzluq, yaddaşın azalması**

Həkim qəbulu və həkimə zəng etmək saat 11.00-dan sonra **Tel: (012) 437-88-05; (050) 213 88-05.**

**Həkimin 16 TV çıxışları: youtube.com və facebook.com "doktor Vaiz Səmədov".**

**Başsağlığı**

**Müsavat Partiyası Gəncə şəhər və Samux rayon təşkilatları Mahir və Gülbəniz Bayramovlara əzəzləri Əliəhməd kişinin vəfatından kədərləndiyini bildirir, dərin hüznlə başsağlığı verir.**

**Elan**

**Azadlıq prospekti, ABŞ səfirliyi və Nəsimi Rayon Polis İdarəsinin yanında, 12 mərtəbəli binanın 4-cü mərtəbəsində, 90kv.m.-lik 3 otaqlı mənzil satılır. Sahibindən.**
**Telefon (050) 3885035**

**Beynəlxalq Təhsil Mərkəzi**

***Biz sizi Ukraynanın, Belorusun, Rusiyanın və Gürcüstanın dövlət universitetlərində bakalavr və magistr dərəcələri üzrə əyani, qiyabi və ikinci ali təhsil almağa dəvət edirik.***

- *Kiyev Dövlət Texniki Universiteti*
- *Kompüter mühəndisliyi. Hüquq. İqtisadiyyat.*
- *Kremençuk Dövlət Universiteti*
- *Psixologiya. Jurnalistika. Hüquq. Filologiya*
- *Kiyev Dövlət Dəniz Akademiyası*
- *Gəmi sürmə. Dəniz və çay nəqliyyatı. Hüquq*
- *Tbilisi Dövlət Tibb Universiteti*
- *Müalicə işi. Stomatologiya. Əczaçılıq. Pediatria*
- *Minsk Dövlət Universiteti*
- *Beynəlxalq Münasibətlər. İqtisadiyyat. Jurnalistika*
- *Qrodno Dövlət Universiteti*
- *Hüquq. İqtisadiyyat. Pedoqoqika. Tərcüməçilik*
- *Volqoqrad Dövlət Aqrar Universiteti.*
- *Aqronom. Yerölçmə və Kadastr. Elektrik təchizatı.*

**Bizim bu ölkələrin yuxarıda adları sadalanan və bu siyahıda adları olmayan bir çox digər dövlət universitetləri ilə əməkdaşlıq və təmsilçilik haqqında rəsmi müqavilələrimiz var. Diqqət! Bəzi ixtisaslar üzrə pulsuz təhsil almaq şansınız var!**

**Ünvan: Bakı ş. Məmmədzadə k. 13A «Nərimanov» m-su**
**Tel: (050) 3319999; (077)3319999; (055)2522525; (012)4379980**

## Xocahəsəndə məktəbli su dolu xəndəyə düşüb



**Binəqədi rayonu, Xocahəsən qəsəbəsində evləri su basıb. Sakinlər Fövqəladə Hallar Nazirliyindən, rayon icra hakimiyyətindən kömək gözləyir: "Yağış yağdı, evlərimizi su basdı. Fövqəladə Hallar Nazirliyindən kömək istəmişik. Elə evlər var ki, sakinləri suda boğulmamaq üçün damlara çıxıblar. Uşaqlar məktəbə gedə bilmir, bir uşaq yolun kənarındakı su dolu xəndəyə düşüb".**

Bu həyəcanlı xəbəri redaksiyamıza verən sakinlərdən biri deyib ki, həmin uşağı sudan yoldan ötənlər çıxarıb: "Bədbəxt hadisə olacaqdı. Yaxşı ki, yoldan keçən olub. Buralarda qayıqsız hərəkət etmək mümkün deyil". Qəsəbədəki "Sahil" şadlıq evinin arxasında yerləşən 25 ev davamlı yağıntıdan sonra suyun altında qalıb.

Mövzuya qayıdacağıq.

❑ **E.MƏMMƏDƏLİYEV**

## Gəncədə dindarlarla polis arasında qarşıdurma



**Gəncə şəhərində Şah Abbas cümə məscidində qarşıdurma baş verib. Qarşıdurma məscidə toplaşan dindarların Aşura mərasimi ilə bağlı imam Hüseyn məclisi keçirməsi zamanı olub.**

İnanclı kəsimin nümayəndələri Şah Abbas cümə məscidinin həyətində toplaşaraq əzadarlıq (sinə vurmaq - red.) edərkən, polis qüvvələri məscidə gələrək, camaatdan məscidin həyətini boşaltmalarını və hər kəsin məscidin içinə girmələrini istəyiblər.

Bu zaman camaatla polis qüvvələri arasında qısa müddətli münaqişə baş verib. Sakinlərin musavat.com-a verdiyi məlumata görə, Gəncə şəhərində son zamanlarda dindarlara qarşı təzyiqlər edilir: "Son bir neçə ildə məscidlərə, dindarlara nəzarət artıb. Məscidlərə müəyyən qadağalar qoyulur. Bir neçə il bundan öncəyə qədər polislərin müşayəti altında Aşura günü ilə bağlı tasua yürüşü edilirdi. İndi ona da qadağa qoyulub".

❑ **Məhəmməd TÜRKMƏN**

## Arvadı ilə Suriyaya qaçmaq istəyən şəxs həbs olundu

**Suriyadakı terrorçulara qoşulmaq üçün ölkədən getmək istəyən şəxs saxlanılıb. Musavat.com-un Daxili İşlər Nazirliyinin mətbuat xidmətinə istinadən verdiyi məlumata görə, Şəki rayon sakini Rahim Hacıyev həmyerlisi Samir Abdurrəhmanova qarşı dələduzluq edərək avtomobil satacağı adı ilə onun 11 min manatını alıb, avtomobili isə başqa yerdə gizlədib.**

Daha sonra R.Hacıyev həyat yoldaşı Günellə birgə Suriyadakı terrorçu qruplara qoşulmaq niyyəti ilə ölkəni tərk etmək istəyib və bu zaman Şəki Rayon Polis Şöbəsinin əməkdaşları tərəfindən saxlanılıb.

R.Hacıyevin evinə baxış zamanı təbliği və yayılması qanunla qadağan edilmiş 12 ədəd dini məzmunlu kitab, 9 ədəd disk və digər maddi sübutlar aşkar edilərək götürülüb. Faktla bağlı Şəki ŞRPŞ-də Cinayət Məcəlləsinin 178.3.2-ci (dələduzluq) maddəsi ilə cinayət işi qaldırılıb.

Rahim Hacıyev barəsində məhkəmənin qərarı ilə həbs-qətimkan tədbiri seçilib və o, həbs olunub.

## Hökməlidəki qətlin təfərrüatları açıqlandı

**Baş Prokurorluq Abşeronda baş verən silahlı insidentlə bağlı məlumat yayıb. Qurumun mətbuat xidmətindən APA-ya verilən məlumatda qeyd olunur ki, noyabrın 1-də saat 04 radələrində Abşeron rayonunun Hökməli qəsəbə sakini Şükürov Fəqani Adil oğlunun tanımadığı şəxsi öz evinin qarşısında tüfənglə atəş açaraq öldürməsi və rayon polis şöbəsinə gəlib könüllü surətdə təslim olaraq cinayətin aləti olan tüfəngi təhvil verməsi barədə rayon prokurorluğuna daxil olmuş məlumat əsasında rayon prokurorluğu və polis şöbəsinin əməkdaşları dərhal F.Şükürovun yaşadığı ünvana gələrək hadisə yerinə baxış keçirib, fotoşəkillər çəkib, oradan istintaq üçün əhəmiyyət kəsb edən əşyalar maddi sübut kimi götürülüb.**

Faktla bağlı rayon prokurorluğunda Cinayət Məcəlləsinin 120.1-ci (qəsdən adam öldürmə) maddəsi ilə cinayət işi başlanıb.

İlkin araşdırmalarla müəyyən edilib ki, F.Şükürov qeyd edilən tarixdə saat 01 radələrində yaşadığı evdə olarkən küçədən söyüş səsləri eşitdiyindən bayıra çıxaraq orada olan 5-6 nəfər tanımadığı şəxslərə irad tutduqda aralarında mübahisə yaranıb. Bundan sonra F.Şükürov həmin şəxsləri qorxutmaq məqsədilə özünə məxsus təklülləli ov tüfəngini evindən götürərək küçəyə çıxıb sakit olmalarını tələb etdikdə, həmin şəxslərdən Qurbanov Kamal Rafiq oğlu tüfəngi onun əlindən almaq istərkən atəş açılması nəticəsində döş nahiyəsindən xəsarət alıb. F.Şükürov K.Qurbanovu özünə məxsus "NİVA" markalı avtomobillə xəstəxanaya apararkən sonuncu aldığı xəsarətlərdən yolda ölüb.

F.Şükürov iş üzrə təqsirləndirilən şəxs qismində cəlb edilərək barəsində məhkəmənin qərarı ilə həbs-qətimkan tədbiri seçilib.

Hazırda cinayət işi üzrə istintaq tədbirləri davam etdirilir.

YENİ MÜSAVAT
N 271 (5980) 4 noyabr 2014



# Bakının su altında qalacağı xəbəri doğrudurmu?

## Yerli ekspertlərin bu məsələ ilə bağlı proqnozları müxtəlifdir

**Son günlər dünyanın ən diqqətçəkən xəbərlərindən biri heç şübhəsiz ki, bədbin proqnozlarla bağlıdır. Bunlardan ən yadda qalanı "National Geographic"ə aiddir. Jurnalın yazdığına görə, buzlaqların əriməsi nəticəsində dünya okeanının səviyyəsi 65 metr qalxacaq. Havanın illik temperaturu 14 dərəcədən 26 dərəcəyədək yüksələcək.**

Şimali Amerikada Florida, Argentinada Buenos-Ayres, həmçinin Uruqvay və Paraqvay kimi ölkələr su altında qalacaq.

Avropada isə Britaniya, Niderland, Danimarkanın böyük bir hissəsi, o cümlədən İtaliya Venesiyası məhv olacaq.

Xəzər dənizində də suyun səviyyəsi qalxacaq. Nəticədə Volqoqrad, Həştərxan, Kalmıkiya Respublikası, Rostov vilayəti su altda qalacaq. Dağıstan və Türkmənistan ərazilərinin xeyli ərazisi itəcək. Bakı və Kür sahili ərazilərin hamısı su altda qalacaq.

**Şəhərsalma üzrə ekspert Vaqif Behbudoğlu** "Yeni Müsavat"a açıqlamasında bildirdi ki, bu proqnozu 10 il əvvəl deyib. Onun sözlərinə görə, bunun elmi səbəbləri var. Belə ki, hər il yerdən 16 milyard kubmetr yanacaq növləri çıxarılır: "Bunların hamısı yandırılıb qaza çevrilir. Ozon qatından yuxarı çıxanda isə Yer kürəsinin kütləsi azalır. Bu səbəbdən də Nyutonun qanununa görə, bir-birini cəlb edən qüvvələr bir-birinə münasib olmalıdır. Bu, Günəş tərəfindən çəkilməyə səbəb olur. 2001-ci ildəki hesablamalara görə, hər il Yer kürəsi günəşə 100 metr yaxınlaşır. Bu da yayın isti, qışın soyuq keçməsinə səbəb olur. Bu işi bilməyən alimlər deyir ki, bu, qlobal istiləşmədir. Əslində isə Yer kürəsinin kütləsinin azalmasıdır".

**Müsahibimiz Bakının su altında qalma ehtimalından da danışdı. Dedi ki, vaxtilə Xəzər və Qara dəniz arasında boğaz olub. Burda dənizlərin səviyyəsi bərabər olub. Tektonik proses nəticəsində Xəzər dənizini Qara dənizə birləşdirən boğaz quruyub. Getdikcə azalıb və 28 metrdə dayanıb:** "Bu proses axıra qədər çatsa nələr ola bilər? Antraktida və Qrellandiya arasındakı buzlaqlar isə 32 milyon kubkilometrdir. Onların əriməsi suyun səviyyəsinin 79 metr - 32 milyon kubkilolitr qalxmasına səbəb ola bilər".

Müsahibimiz bunu 100 faiz ehtimal adlandırdı. Onun sözlərinə görə, belə davam etsə, proses 80-100 il çəkə bilər. Çünki Yerin Günəşə meylliliyi get-gedə artır.

**Ekoloq Telman Zeynalov isə daha öncə mediaya açıqlamasında iqlim dəyişməsinin Azərbaycan üçün nəticələrinə toxunub. Deyib ki, biz Rusiya ilə qonşu olduğumuza görə onlarda baş verən hadisə bizə təsirsiz ötüşməyəcək:** "Əgər onların ərazisindəki buzlaqlar ərisə, şimala doğru axan çayların əksəriyyəti cənuba doğru axmağa başlayacaq və Xəzər dənizinin səviyyəsinin 30-40 metr qalxmasına şərait yaradacaq. Bu da o deməkdir ki, Azərbaycanın 25-30 faizi suyun altında qalacaq. Rusiya və Azərbaycanın şimal hissəsində yağıntıların miqdarı artıb. Bu, Ural, Volqa, Samur, Kür və Xəzərə tökülən digər çaylarda suyun artmasına səbəb olur. Nəticədə dənizdə də suyun səviyyəsi yüksəlir". O, gələcəkdə Xəzər dənizindəki dalğaların bir çox sahilyanı obyektləri yuyub aparacağını düşünür. Bir vaxtlar Xəzərdə suyun səviyyəsinin 4 metr yüksəldiyini xatırladan T.Zeynalov bu dəfə artımın 2 metr olacağını bildirir.

**Coğrafiya İnstitutunun direktorn müavini Ramiz Məmmədov isə hesab edir ki, proqnozlar Xəzərdə suyun səviyyəsinin yaxın 15-20 ildə nisbətən sabit qalacağını göstərir:** "Bu yaxınlarda ekspedisiyadan qayıtmışam. Aparılmış tədqiqatın nəticəsi göstərir ki, Xəzərdə suyun səviyyəsi təxminən yarım metr azalıb. Yaxın 1-2 il üçün proqnoz onun nisbətən arta biləcəyi ilə bağlıdır. Guya 2020-ci ildə Xəzərin Qız qalasınadək gəlib çıxacağına dair söz-söhbətlər var idi. Amma bu fikrin heç bir əsası yoxdur. Hansısa dövrdə Xəzərdə suyun yarım metr artacağı və ya azalacağı istisna deyil. Amma bu, fövqəladə hadisə sayılmır".

Sözügedən mövzu ilə bağlı daha öncə Qazaxıstan prezidenti Nursultan Nazarbayev da maraqlı məqamlara toxunub. O, region dövlətlərinə, o cümlədən Azərbaycana ciddi təsir edə biləsək layihələrdən danışıb. Təklifini nəqliyyat dəhlizləri ilə bağlayan qazax lider ilk öncə Minsk, Moskva, Astana və Almatı şəhərlərini birləşdirən sürət qatarından danışıb. Daha sonra o, Qara dənizlə Xəzəri birləşdirən "Avrasiya" gəmiçilik kanalının çəkilməsinin vacibliyini bildirib. "Yeri gəlmişkən, Qara dəniz - Xəzər kanalının layihəsi hələ çarın vaxtından işlənib, amma gerçəkləşdirilməyib", - deyə Nazarbayev vurğulayıb.

Qeyd edək ki, hələ Pyotrun zamanlarından bu kanalı çəkmək barədə layihələr düşünülür. Bu layihələrdə hər iki dənizi vaxtilə birləşdirilmiş Kuma - Manıç çökəkliyinin yenidən kanal halına salınması nəzərdə tutulur. Uzunluğu 500 kilometrə çatan çökəklik ən yüksək nöqtəsində dəniz səviyyəsindən 20 metr yüksək olur. Yəni çox xırda bir hissədə 20 metrdən bir az dərin kanal çəkməklə Xəzərlə Qara dənizi yenidən birləşdirmək mümkündür. Çökəklikdə 170-ə yaxın göl var ki, kanal çəkilərsə, bu göllər təbii yolla birləşəcək.

Amma bu kanalın ən mənfi xüsusiyyəti ondadır ki, o, Qara dənizlə Xəzər dənizinin səviyyəsini bərabərləşdirə bilər. Bu, gerçəkləşdirilərsə, Xəzər sahilində yerləşən bir çox şəhərlər, məsələn Qazaxıstanın Aktau, Türkmənistanın Türkmənbaşı, Rusiyanın Mahaçqala kimi iri şəhərləri su altında qala bilər. Sular Bakının mərkəzi tarixi hissəsini də götürə bilər. O cümlədən Yevlağa qədər Azərbaycanın Mərkəzi Aran rayonları su altında qala bilər.

❑ **Sevinc TELMANQIZI**



# Havalar soyuyan kimi niyə qaz problemi yaranır?

## Vahid Əhmədov: "Əgər problem varsa, deməli, bu, daxili amillə, idarəetmə və strukturla bağlıdır"

**Azərbaycanda havalar soyuyan kimi mavi yanacağın verilməsində də problemlər yaranır. Son günlər də havaların kəskin soyuması nəticəsində bir çox bölgələrdə, paytaxtın müxtəlif yerlərində qaz problemləri ortaya çıxıb. Bakının bir neçə kənd, qəsəbəsində qaz yoxdur. Bəzi yerlərdə isə qazın təzyiqi olduqca zəifdir. Evləri elektrik qızdırıcıları ilə qızdırmaq vətəndaşların büdcəsinə uyğun olmadığı üçün insanlar daha çox qazdan istifadə edirlər. Havaların soyuması və yaranan problemlər orta məktəblərə də ciddi təsir edib. Azərbaycanda qış rejiminə noyabrın 15-də keçildiyi üçün orta təhsil müəssisələrinə istilik verilmir. Nəticədə soyuq otaqlarda təhsil alan şagirdlər xəstəliklərə yoluxurlar. Bəzi ölkələrdə havalar soyuyanda qış vaxtına daha tez keçilir.**

Hər il havalar soyuyan kimi qazın verilməsində problemlər yaransa da, "Azəriqaz"ın ictimaiyyətlə əlaqələr şöbəsinin əməkdaşı İbrahim Kərbalıyev heç bir problemin olmadığını deyir: "Qaza olan tələbat artdıqca təbii ki, qazın verilməsinin də həcmi artır. Hazırda qaz olmadığı deyilən ərazilərdə "Azəriqaz" tərəfindən aparılan təmir bərpa işləri və yaxud da məhdudiyyət yoxdur. Azərbaycanda qış vaxtına keçid şərtidir. Yəni belə bir hal sovet dönəmində qalıb. Əgər qaza olan tələbat iki dəfə artarsa, biz ona uyğun olaraq da təbii qazın verilməsini tənzimləyirik. Yəni təbii qazın verilməsi hansısa ayın şərti rəqəmindən asılı deyil".

Milli Məclisin İqtisadi siyasət komitəsinin üzvü Vahid Əhmədov Azərbaycanın kifayət qədər qaz ehtiyatı olduğunu dedi: "Azərbaycan hökumətinin qərarı var ki, qış vaxtı noyabrın 15-dən başlayır. Noyabrın 15-dək qazın, istiliyin verilməsindəki problemlər həll olunmalıdır və qazın təzyiqini artırırlar. Düzdür, hazırda qazla bağlı problemlər yaşanır. Mən Mərdəkanda yaşayıram. Burada da qazla bağlı problemlər var. Qazın təzyiqi çox aşağıdır. Azərbaycanın kifayət qədər qaz ehtiyatı var. Buna görə də heç bir problem olmamalıdır. Azərbaycan qaz ixrac edən bir dövlətdir. Əgər problem varsa, deməli, bu, daxili amillə, idarəetmə və strukturla bağlıdır".

❑ **Günel MANAFLI**

# Qaraçuxurda vətəndaşlara ağac təhlükəsi

## Gövdəsi zədəli ağacın kəsilməsi üçün aidiyyəti qurumlara müraciət edilsə də, buna məhəl qoyan yoxdur

**Bakının Qaraçuxur qəsəbəsi, K.İsmayılov küçəsi 1/5 ünvanında yaşayan Firdovsi Vəliyev "Yeni Müsavat"a müraciət edib. Onun sözlərinə görə, yaşadığı evin həyətində hündür, yaşıötmüş, gövdəsi zədəli olan qovaq ağacı təhlükəli vəziyyət yaradıb.**

Şikayətçi deyir ki, hər dəfə güclü külək olanda ağac evə zərər vurur. F.Vəliyev bildirir ki, yaşadığı evin divarını partladıb, qonşuluqda olan uşaqlar üçün də təhlükə yaradır: "Qonşular ərazidən keçməyə qorxurlar.

Hər an ağac aşıb evlərin üstünə yıxıla bilər. Sonuncu dəfə noyabrın 3-ü gecə saatlarında güclü külək az qala ağacı evin üstünə aşıracaqdı. Bu vəziyyətlə bağlı Bakı Şəhər İcra Hakimiyyətinə müraciət etmişəm.

Meriyadan aidiyyəti üzrə məni Bakı Şəhər Yaşıllaşdırma İdarəsinə göndərdilər.

Onların mütəxəssisləri yerində baxış keçirdilər və ağacın təhlükəli olduğunu, kəsilməsinin vacibliyini qeyd elədilər. Rəsmi ekspertizanın rəyini ilə təsdiqlədilər. Ekspertiza rəyinin verilməsindən 9 ay keçməsinə baxmayaraq, gəlib ağacı kəsmirlər".

F.Vəliyev deyir ki, bununla bağlı Heydər Əliyev Fondunun prezidenti Mehriban Əliyevaya müraciət edib: "Bu müraciətə cavab olaraq, problemin həlli üçün Fonddan Suraxanı Rayon İcra Hakimiyyətinə məktub göndərilib. Ancaq icra hakimiyyəti ötür-ötür oyunu oynayır.

Suraxanı Rayon İcra Hakimiyyəti isə cavab olaraq məktubun bir surətini mənə, birini də Bakı Yaşıllaşdırma İdarəsinə göndərib ki, ağac kəsilsin. Amma bu günə kimi ağac kəsilməyib. Artıq kimə müraciət edəcəyimi bilmirəm. Bir ağacın kəsilməsi işini belə uzadırlar".

**Şikayətçi bildirir ki, həyətdə uşaqlar oynayırlar və orada belə bir ağacın olması onların həyatına təhlükədir:** "Mən Fövqəladə Hallar Nazirliyinin 112 xidmətinə də zəng etmişəm. Onlar bildirdi ki, qəza baş verməsə heç bir tədbir görə bilmərik. Odur ki, Allahın ümidinə qalmışıq".

Bakı Yaşıllaşdırma İdarəsindən "Yeni Müsavat"a bildirildi ki, ağacın kəsilməsi üçün Bitkilərin Mühafizə İdarəsinə müraciət edilməlidir.

❑ **E.SALAMOĞLU**



YENİ MÜSAVAT

Son səhifə

N 271 (5980) 4 noyabr 2014



## Dünyanın ən əcaib bank oğurluğu - 1 dollar oğurladı

Amerikanın Pensilvaniya federal həbsxanasına düşmək istəyən bir nəfər qəribə üsula baş vurub. O, bu məqsədlə bankı 1 dollarlıq "qarət edib". Polisə verilən şikayətə görə, Cefrey McMullen adlı kişi "AmirServ" adlı banka müştəri kimi girib və xəzinədara içində "mənə bir dollar verin" sözləri yazılan vərəq verib. Xəzinədar bunun bir zarafat olduğunu düşünsə də, daha sonra kişi başqa bir bank işçisinə yaxınlaşıb. Cefrey bu dəfə də həmin bank işçisinə soyğunçu olduğunu deyib və sonuncu bununla bağlı polisə müraciət edib. Polis hadisə yerinə gəlib və Cefreyi saxlayıb. İşinə federal məhkəmədə baxılacaq kişi polisə deyib ki, məqsədi şəhərin mərkəzindəki bir həbsxanaya göndərilmək olub. Məhkəmə isə bu adam üçün hər hansı bir vəkil təyin etməyib. McMullenin əqli durumunun qaydasında olub-olmamasını yoxlamaq üçün onu psixiatrik müayinədən keçirməyə qərar veriblər. Polis onu da aşkarlayıb ki, bu adam bank xəzinədarına iki vərəq yazıb. Bunlardan birində "FBİ tərəfindən yaxalanma. Loretto Pennsylvanianı tərcih edirəm. Mətbuat yox. Bütün sənədləri möhürlə", digərində isə "Federal bank qarəti. Lütfən 1 dollar ver" sözləri yazılıb. Polislər təxmin edir ki, bank soyğunçusu hadisənin mediaya yayılmasını istəmədiyi üçün "Mətbuat yox" sözlərini yazıb.

# Yiyəsiz evdə 10 min şərab butulkası tapıldı

Çindəki bir yiyəsiz evdə 10 min qırmızı şərab şüşəsi tapılıb. Özü də bu qırmızı şərab dünyadakı ən bahalı şərab növü sayılır. Lenta.ru saytının xəbərinə görə, hələ də bu evdə kimin yaşaması barədə dəqiq məlumat yoxdur. Polislər isə evin 9 ildir boş olduğunu müəyyənləşdirib. Hüquq-mühafizə orqanları təxmin edir ki, bura içki mafiyasının gizli yuvalarından biri olub. Ordakı şüşələrə isə saxta içkilər doldurulub. Şüşələrin həqiqi olduğu üzə çıxsa, orda 16 milyon dollarlıq sərvətin yatdığı məlum olacaq.



# Çərşənbə axşamı işləyər, çərşənbə günü aşiq olarlar

İngiltərənin "The Sun" qəzeti insanların iş qrafikini həftənin günlərinə uyğun bölüb. Həmin qrafikə görə, həftənin çərşənbə axşamı günü insanların ən məhsuldar günüdür. Həftənin çərşənbə günü isə insanların sevməsi və aşiq olması üçün idealdır. Amerikada 8 min subay arasında aparılan araşdırmada bu, özünü təsdiqləyib. Belə ki, rəyi soruşulanlar deyib ki, ilk görüş uğurlu keçirsə iki gün sonra növbəti görüş üçün də vədələşmə baş tutur və xoşbəxt bir münasibətin təməli qoyulur. Həftənin cümə günü ilə bağlı nəticə isə ondan ibarətdir ki, insanlar bu tarixdə həftə sonunun da gətirdiyi rahatlıqla hətta siqareti də atmaq haqda düşünür. Şənbə gününə gəlincə... Burada söhbət təkcə əyləncə saatlarından getmir. Alimlər həmin gün həddən artıq alkoqol qəbul etməyə qarşı çıxır. Belə ki, bu, insanların alkoqollu halda maşın idarə etməsi qəzaların sayını 70 faiz daha artırır. Bundan başqa, hamilə qadınlara məhz həmin gün doğum etmək məsləhət görülür. Burada söhbət qeysəriyyə əməliyyatı ilə uşaq dünyaya gətirməkdən gedir. Çünki həmin gün doğulan uşaqlar digərləri ilə müqayisədə daha çox uğur qazanır. Bazar gününə gəlincə, həmin gün insanlara evdə yemək hazırlamaq məsləhət görülmür. Çünki bu, ciddi stress yaradır.






## Kompüter oyunları yaddaşı gücləndirmir

Kompüter oyunlarının insan beyninə müsbət təsir etməsi ilə bağlı iddia öz təsdiqini tapmayıb. Berlin alimləri kompüter oyunları hazırlayan firmaların reklamlarında tez-tez istifadə etdikləri və müştərilərə təsir edən "mütəxəssislər tərəfindən hazırlanıb" cümləsinin həqiqəti əks etdirmədiyi nəticəsini əldə edib. Müxtəlif ölkələrdən 70-dən artıq nevropatoloq və psixoloq aydınlaşdırıb ki, beyin gimnastikasını təmin edən kompüter oyunları yaşlılıqla bağlı zehni qabiliyyət faizini aşağı salmır, amma heç yuxarı da qaldırmır. Oyunlar insan yaddaşını əsla gücləndirmir. Max Planck İnstitutundan Ulman Lindenberger fiziki olaraq aktiv olan, sosial həyata qatılan və zehni olaraq da oyaq qalan insanların zehni baxımdan daha sağlam yaşlanma şansının olduğunu dedi. Beyin və davranışları irəliləyən yaşlarda da idmana, gimnastikaya öyrəşdirməyin mümkünlüyü də elmi araşdırmaların nəticələri sırasındadır.




**QOÇ** - Qeyri-adi işlərə başlamaq, riskli addımlar atmaq, ciddi işlərə girişmək yolverilməzdir. Yaxşı olar ki, bu ərəfədə yalnız daxili sabitliyinizi qoruyasınız. Xətakar olmayın.

**BUĞA** - Deyəsən, iqlimin şıltaqlığı səhhətinizi zəiflətmək fikrindədir. "Hakim" olan Əqrəb sizin bürcə müxalif olsa da, məğlub olmaq sizə yaraşmaz. Qonaq getmək düşərli olsa da, başqa ünvanda gecələməyin.

**ƏKİZLƏR** - Hər bir ixtiyar öz əlinizdədir. Bu təqvimin axarı və nəticəsi atacağınız addımlardan asılı olacaq. Ulduzlar ağır işlərdən kənarlaşmağı məsləhət görür. Səfərə də çıxmaq olar.

**XƏRÇƏNG** - Ötən günlərlə müqayisədə rahatlığınız bir qədər artacaq. Müsahiblərinizlə maraqlı olmayan mövzulardan bəhs etməyin. Yeni əlaqələr yaratmaq fikrinizdə qətiyyətli olun.

**ŞİR** - Ulduzlar xəbər verir ki, ötən günlərdə bir neçə səhv qərar çıxarmısınız. Bu səbəbdən də çətinlikləriniz artıb. İxtiyarınızda olan bu günü həmin səhvləri aradan qaldırmağa yönəltməlisiniz.

**QIZ** - Daxili orqanlarınızda nasazlıq əmələ gələ bilər. Bu amili nəzərə alıb geyiminizə və qidanıza fikir verin. Qonaq getdiyiniz təqdirdə soyuq və spirtli içkilərdən uzaq olun.

**TƏRƏZİ** - Bu arada uzaq səfərə çıxmasanız, hansısa problemlə rastlaşmayacaqsınız. Çalışın ki, ürəyiniz istəyən adamların arasında olasınız. Sübuta yetirilməmiş səhvlərə görə kimisə qınamayın.

**ƏQRƏB** - Günün ilk yarısında bir qədər xoşagəlməz situasiyalarla rastlaşa bilərsiniz. Özünüzü təmkinli aparın. Sonrakı saatlarda sevdiyiniz adamların əhatəsində olun. Elektriklə ehtiyatlı davranın.

**OXATAN** - Maddi problemləriniz olsa da, astroloji göstəricilər bunun qanqaraçılığa səbəb olmayacağını vurğulayır. Əksinə, çoxdan görmədiyiniz yaxınlarınızla əlaqə yaradıb rahatlanacaqsınız.

**OĞLAQ** - Bütün diqqətinizi istirahətə yönəltsəniz, daha xoş ovqat qazana bilərsiniz. Çünki bu təqvimdə fəaliyyətə ara verməyiniz, əvəzində qonaqlıq və səfərə getməyiniz məsləhət görülür.

**SUTÖKƏN** - Saat 12-yə qədərki vaxtı gərginlik içərisində başa vura bilərsiniz. İnsanlar müxtəlif xislətli olduqlarından təmkininizi artırmalısınız. Sonra isə proseslər xeyrinizə cərəyan edəcək.

**BALIQLAR** - İxtiyarınızda olan bu gündə ovqatınızın yüksək olacağına şübhə etməməlisiniz. Romantik görüş və qonaqlıqlar yolunuzu gözləyir. Axşama yaxın mövcud problemlərinizin həlli üçün dəstək alacaqsınız.

**Unutmayın, Tanrı ulduzlardan daha yüksəkdə durur!**

## Dənizin içində, balinanın üstündə qaldı

Avstraliyada gənc bir adam suda sürüklənən ölü bir balinanın üzərinə çıxmış vəziyyətdə görüntülənib. İşin ən maraqlı tərəfi isə balinanın ətrafında köpək balıqlarının üzməsi idi. Harrison Villiams adlı gənc qayığı ilə dənizdə tura çıxdığı zaman acı çəkdiyini



düşündüyü balinaya yardım etmək üçün suya tullanıb. Amma balinanın yanına gəldikdən sonra ölü olduğunu anlayan Villiams onun üstünə çıxanda qəribə mənzərə ilə qarşılaşıb. Məlum olub ki, yaralı balinanın ətrafındakı köpək balıqları onu didmək üçün növbəyə dayanıblar. Gənc bu mənzərədən qorxuya düşdüyü üçün qışqırmağa başlayıb. Onu başqa bir gəmidəki heyət xilas edib.

**Səhifəni hazırladı: SELCAN**

Təsisçi: Rauf ARİFOĞLU
Baş redaktorun birinci müavini: Azər AYXAN

e-mail adres: yenimusavat@mail.ru

Ünvan: Bakı şəhəri, R.Rüstəmov küçəsi 2528-ci məhəllə ev 44/d
Tel: 520 01 23 (24, 25, 26, 27, 28)

Redaktor: Zabil MÜQABİLOĞLU

"Yeni Müsavat"ın kompüter mərkəzində yığılıb, səhifələnib, "Azərbaycan" nəşriyyatında çap edilib. Əlyazmalar geri qaytarılmır. Müəlliflərlə redaksiyanın mövqeyi uyğun gəlməyə bilər.

Lisenziya N: B 114
SAYI: 5.600